AZƏRBAYCAN RESPUBLİKASININ

ALİ MƏHKƏMƏSİ

# M Ü N D Ə R İ C A T

Azərbaycan Respublikası Ali Məhkəməsinin Sədri Ramiz Rzayevin mətbuat və kütləvi informasiya vasitələrinin nümayəndələrinə müraciəti........ 3
Ali Məhkəmənin məhkəmə sistemində yeri, səlahiyyəti, tərkibi və strukturu........ 6
Ali Məhkəmədə 2014-cü ildə baxılmış işlər haqqında ümumi məlumat........ 9
Ali Məhkəmənin məhkəmə kollegiyalarında və Plenumunda icraat........ 12
Ali Məhkəmənin kollegiyalarında 2014-cü ildə ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumat: ........ 13
Mülki kollegiya........ 13
İnzibati-İqtisadi kollegiya........ 16
Cinayət kollegiyası........ 23
Hərbi kollegiya........ 27
Ali Məhkəmənin Plenumu........ 30
Ali Məhkəmənin Aparatı və İşlər idarəsi........ 33
Ali Məhkəmənin 2014-cü ildə beynəlxalq əlaqələri........ 41
Bakıda "İnsan hüquqları və əsas azadlıqları haqqında Avropa Konvensiyasının ölkə daxili tətbiqində milli hakimlərin rolu" mövzusunda Beynəlxalq Konfrans keçirilmişdir........ 45
Ali Məhkəmənin İnternet səhifəsi........ 48
Ali Məhkəmənin bülleteni........ 50
Ali Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi........ 51
Kütləvi informasiya vasitələri nümayəndələrinin Ali Məhkəmə ilə əlaqə qaydası........ 52

## Azərbaycan Respublikası Ali Məhkəməsinin Sədri Ramiz Rzayevin mətbuat və kütləvi informasiya vasitələrinin nümayəndələrinə M Ü R A C İ Ə T İ

***Hörmətli xanımlar və cənablar!***




Sizləri salamlayır və hər yeni görüşün yaratdığı məmnunluğu nəzərinizə çatdırmaq istəyirəm.

Öncə Ali Məhkəmənin fəaliyyəti üçün mühüm əhəmiyyət kəsb edən və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 13 fevral 2014-cü il tarixdə imzalanan "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında" Sərəncamının icrası ilə bağlı danışmaq istəyirəm. Bu Sərəncama əsasən Ali Məhkəmədə ədalət mühakiməsinin həyata keçirilməsi zamanı şəffaflığın, insan hüquq və azadlıqlarının səmərəli müdafiəsinin təmin edilməsi, müasir informasiya texnologiyalarının tətbiqi prosesinin sürətləndirilməsi məqsədilə ərizə, şikayət və digər sənədlərin elektron formada qəbulu, cinayət işləri, mülki, inzibati, iqtisadi mübahisələrə dair və inzibati xətalar haqqında işlər üzrə icraatın elektron qaydada aparılması, sənədlərin elektron dövriyyəsi, məhkəmə prosesində iştirak edən şəxslərə məlumatların elektron qaydada – elektron poçt, SMS məlumatlandırma və sair vasitələrlə çatdırılması və digər məsələlərlə əlaqədar il ərzində müəyyən işlər görülmüşdür. İctimaiyyətdə Ali Məhkəmənin fəaliyyəti haqqında dolğun məlumatların olmasını təmin etmək məqsədi ilə internet səhifələrində daim yeniləşdirilən saytımız yerləşdirilmişdir. Həmin saytda Ali Məhkəmənin Plenumu və müvafiq kollegiyaları tərəfindən qəbul edilmiş qərarlar və digər məlumatlar verilir.

Ədalət mühakiməsinin yüksək səviyyədə həyata keçirilməsi üçün müasir standartlara uyğun şəraitin yaradılması ilə Siz özünüz də əyani olaraq tanış ola bilərsiniz. Bütün bunlara görə 2014-cü il ərzində Ali Məhkəmədə vətəndaşların hüquqlarının məhkəmə müdafiəsinin səviyyəsi yüksəlmişdir. Qeyd edim ki, Bakıda və respublikamızın bir sıra rayonlarında yeni məhkəmə binaları tikilib istifadəyə verilmişdir.

Ali Məhkəmənin bütün kollegiyalarında - mülki, inzibati-iqtisadi, cinayət və hərbi kollegiyalarında 2014-cü ildə baxılmış işlərin sayı 2013-cü illə müqayisədə artmışdır. Mülki kollegiyada **8,4 faiz**, inzibati-iqtisadi kollegiyada **8,3 faiz**, cinayət kollegiyasında **17,2 faiz**, hərbi kollegiyada isə **31,4 faiz** artma müşahidə olunmuşdur.

Ümumiyyətlə, Ali Məhkəmədə 2013-cü ildə **7847 işə** baxıldığı halda, 2014-cü ildə bu rəqəm **8668** olmuşdur. Baxılan işlərin sayı **10,5 faiz** artmışdır.

2014-cü ildə Ali Məhkəmədə vətəndaşların ərizə və şikayətlərinə, digər müraciətlərinə baxılmasına, onlara hüquqi cəhətdən əsaslı və düzgün cavab verilməsinə diqqət artırılmışdır.

Bilirsiniz ki, insan və vətəndaş hüquq və azadlıqlarının təmin edməsi dövlətimizin ali məqsədi, onları gözləmək və qorumaq isə qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur. Biz məhkəmə hakimiyyəti olaraq ədalət mühakiməsinin həyata keçirilməsi səviyyəsini elə qurmağa çalışırıq ki, cəmiyyətin şüurunda məhkəmə həqiqətən, cəmiyyət üzvlərinin maraqlarını ifadə edən, vətəndaşların qanun icraçılarının özbaşınalığından müdafiəsini təmin edən orqan kimi qəbul olunsun.

Azərbaycan "İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında" Avropa Konvensiyasına qoşulmuşdur və Avropa Məhkəməsinin presedent hüququ bizim hüquq sistemimiz üçün çox əhəmiyyətlidir.

2014-cü ildə mühüm tədbirlərdən biri də Ali Məhkəmənin və Avropa Şurasının birgə təşkilatçılığı ilə "İnsan Hüquqları və Əsas Azadlıqlarının Müdafiəsi haqqında" Avropa Konvensiyasının ölkə daxili tətbiqində milli hakimlərin rolu" mövzusunda Beynəlxalq Konfransın keçirilməsi olmuşdur. Həmin mötəbər konfransda Azərbaycan Ali Məhkəməsinin Konvensiyanın tətbiqi sahəsində xüsusi rolu qeyd edilmişdir.

İndi məhkəmələrin iş fəaliyyətinə olan tələblər daha da yüksəlmişdir. Bu baxımdan ədalət mühakiməsini həyata keçirən hakimlərin beynəlxalq hüquq normalarını, insan hüquqları

sahəsində beynəlxalq standartları, onların tətbiqi təcrübəsini mənimsəmələri önəmli olduğundan Ali Məhkəmədə hər həftə keçirilən seminarda beynəlxalq hüquqi aktlar, xüsusən də "İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında" Avropa Konvensiyasının müddəaları, Avropa Məhkəməsinin presedent hüququ müzakirə edilir. Hakimlərin və dəvət olunmuş beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə "dəyirmi masa"lar keçirilir, Avropa dövlətləri məhkəmələrinin təcrübəsinin öyrənilməsinə kömək edən xarici dövlətlərə tanışlıq səfərləri təşkil edilir.

Bizim əsas prinsipimiz məhkəmə proseslərində aşkarlığı təmin etməklə ədalətli qərarlar qəbul edilməsinə nail olmaqdır.

***Hörmətli jurnalistlər!***

Sizi qanunun aliliyinin təmin olunması, insan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi və sosial ədalətin bərpası naminə birliyə və bizimlə əməkdaşlığa dəvət edirəm. Hər birinizə sağlamlıq və yaradıcılıq uğurları arzulayıram.

**Hörmətlə,**

**Ramiz Rzayev**
**Azərbaycan Respublikası**
**Ali Məhkəməsinin Sədri**

## Ali Məhkəmənin məhkəmə sistemində yeri, səlahiyyəti, tərkibi və strukturu

Azərbaycan Respublikası Konstitusiyasının 131-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Ali Məhkəməsi ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid edilən mülki, cinayət və digər işlər üzrə ali məhkəmə orqanıdır.

Ali Məhkəmə mülki, inzibati və iqtisadi mübahisələrə dair işlər üzrə, cinayət işləri və cinayət təqibi ilə bağlı digər materiallar üzrə kassasiya qaydasında ədalət mühakiməsini həyata keçirir.

Ali Məhkəmə Azərbaycan Respublikasının Bakı şəhərində təşkil edilmişdir və onun yurisdiksiyası Azərbaycan Respublikasının bütün ərazisinə şamil edilir.

Ali Məhkəmə Plenumdan və dörd məhkəmə kollegiyalarından ibarətdir.

"Məhkəmələr və Hakimlər haqqında" Azərbaycan Respublikasının qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 22 iyun 2010-cu il tarixli Qanununa əsasən Ali Məhkəmənin "mülki işlər üzrə, iqtisadi mübahisələrə dair işlər üzrə, cinayət işləri və hərbi məhkəmələrin işləri üzrə məhkəmə kollegiyalarının" adları dəyişdirilərək müvafiq surətdə "mülki kollegiya, inzibati-iqtisadi kollegiya, cinayət kollegiyası və hərbi kollegiya" adlandırılmışdır.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun "Azərbaycan Respublikası Ali Məhkəməsi məhkəmə kollegiyasının tərkibinin təşkili barədə" 11oktyabr 2013-cü il tarixli qərarına əsasən məhkəmə kollegiyalarında işlərə baxılması üçün hər biri üç hakimdən ibarət olan məhkəmə tərkibləri, o cümlədən:

**Mülki kollegiya** - kollegiya sədrindən və on səkkiz hakimdən ibarət altı məhkəmə tərkibi,

**İnzibati-iqtisadi kollegiya** - kollegiya sədrindən və doqquz hakimdən ibarət üç məhkəmə tərkibi,

**Cinayət kollegiyası** - kollegiya sədrindən və altı hakimdən ibarət iki məhkəmə tərkibi,

**Hərbi kollegiya** - kollegiya sədrindən və üç hakimdən ibarət bir məhkəmə tərkibi müəyyən edilmişdir.

Ali Məhkəmənin hakimlərinin sayı Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir və onlar bu vəzifəyə Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təyin edilir.

Təsdiq olunmuş ştat vahidi üzrə Ali Məhkəmədə 41 hakim vəzifəsi nəzərdə tutulmuşdur. Lakin bir nəfər hakim pensiya yaşına çatması ilə əlaqədar olaraq vəzifəsindən azad edilidyi üçün Ali Məhkəmə 2014-cü ildə Ali Məhkəmənin sədrindən, məhkəmə kollegiyalarının sədrlərindən və hakimlərindən - cəmi 40 hakimdən ibarət tərkibdə fəalliyyət göstərmişdir.

Ali Məhkəmənin Plenumuna onun bütün hakimləri daxildir.

Ali Məhkəmənin Plenumu üzvlərinin üçdə iki hissəsi iştirak etdikdə Plenum səlahiyyətli sayılır.

Plenum baxılan məsələlər üzrə qərar qəbul edir.

Ali Məhkəmənin Plenumunun qərarları açıq səsvermə yolu ilə səsvermədə iştirak edənlərin səs çoxluğu ilə qəbul edilir. Plenumun üzvləri məhkəmə işləri üzrə səsvermədə bitərəf qala bilməzlər.

Məhkumun vəziyyətini ağırlaşdıran əsaslara görə məhkəmə qərarları, bəraət hökmü, bəraətverici əsaslarla cinayət işinin icraatına xitam verilməsi haqqında məhkəmə qərarları səsvermədə iştirak edən Plenum üzvlərinin üçdə iki səs çoxluğu ilə ləğv edilə bilər.

Ali Məhkəmənin yanında Elmi-Məsləhət Şurası fəaliyyət göstərir.


Azərbaycan Respublikasının Ali Məhkəməsi
Ali Məhkəmənin Sədri
Ali Məhkəmənin sədr müavini
Cinayət kollegiyası 7 hakim
Mülki kollegiya 18 hakim
İnzibati-iqtisadi kollegiya 10 hakim
Hərbi kollegiya 4 hakim
Ali Məhkəmənin aparatı
Ali Məhkəmənin işlər idarəsi
Ali Məhkəmə aparatı rəhbərinin xidməti
Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili şöbəsi
Ali Məhkəmənin Plenumunun katibliyi
Analitik və qanunvericiliyin sistemləşdirilməsi şöbəsi
Cinayət kollegiyasının katibliyi
Mülki kollegiyanın katibliyi
Beynəlxalq əlaqələr şöbəsi
İnzibati-iqtisadi kollegiyanın katibliyi
İnsan hüquqları və ictimaiyyətlə əlaqələr şöbəsi
Hərbi kollegiyanın katibliyi
Vətəndaşların qebulu və müraciətlərlə iş şöbəsi
Dövlət qulluğu və kadr məsələləri sektoru
İcra şöbəsi
İnformasiya Texnologiyaları şöbəsi
İşlər müdirinin xidməti
Ali Məhkəmənin xatirə muzeyi
Maliyyə təsərrüfat şöbəsi
Ali Məhkəmənin kitabxanası
Arxiv
Ali Məhkəmənin mətbəəsi
Ali Məhkəmənin yeməkxanası

# Ali Məhkəmədə 2014-cü ildə baxılmış işlər haqqında ümumi məlumat

Ali Məhkəmənin məhkəmə kollegiyalarında və Plenumunda 2014-cü ildə cəmi **8668** işə, o cümlədən:

-Mülki kollegiyada **4911** işə,
-İnzibati-iqtisadi kollegiyada **1745** işə, (**1349** inzibati, **396** iqtisadi işə)
-Cinayət kollegiyasında **2045** nəfər haqqında **1827** işə,
-Hərbi kollegiyada **191** nəfər haqqında **163** işə,
- Plenumda isə **22** işə baxılmışdır.




Statistik məlumatların müqayisəli təhlili göstərir ki, Ali Məhkəmədə 2014-cü ildə baxılmış işlərin ümumi sayı 2013-cü illə müqayisədə **821** iş, **yəni 10,5 %** artmışdır.

Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, 2013-cü ilə nisbətən 2014-cü ildə Ali Məhkəmədə baxılan işlərin sayı:

-Mülki kollegiyada **379 iş (8,4%) ;**
-İnzibati-iqtisadi kollegiyasında **134 iş (8,3%)**
-Cinayət kollegiyasında **268 iş, ( 17,12%);**
-Hərbi kollegiyada **39 iş ( 31,4%) ;**
-Plenumda isə **1 iş ( 4,8%) artmışdır.**

Məhkəmə statistikasına dair məlumatlardan görünür ki, Respublikanın birinci instansiya ümumi və hərbi məhkəmələri tərəfindən 2014-cü ildə **13342 nəfər**, o cümlədən birinci instansiya ümumi məhkəmələr tərəfindən **11812 nəfər,** hərbi məhkəmələr tərəfindən isə **1530 nəfər** məhkum edilmiş, bu müddətdə **55 nəfər** barəsində bəraət hökmü çıxarılmışdır.

Respublikanın birinci instansiya məhkəmələri tərəfindən 2014-cü ildə ümumi məhkum edilənlərin sayı 2013-cü ilə nisbətən **540 (4,7%) nəfər** artmışdır.




Qeyd olunan müddətdə Respublikanın birinci instansiya ümumi və hərbi məhkəmələri tərəfindən ümumi məhkum edilənlərdən **4254 nəfər** barəsində hökmlərə apellyasiya şikayəti və protesti əsasında müvafiq apellyasiya məhkəmələri tərəfindən baxılmışdır ki, bu da respublikanın birinci instansiya ümumi və hərbi məhkəmələri tərəfindən baxılan cinayət işləri üzrə məhkum edilənlərin cəmi **31,9% faizini** təşkil edir.

Məlumatın əhatə etdiyi dövrdə Apellyasiya Məhkəmələrində cinayət mühakimə icraatı qaydasında baxılmış işlər üzrə çıxarılmış **4254** hökm və qərarlardan **2236 nəfər** barəsində işə Ali Məhkəmədə kassasiya şikayəti və protesti əsasında baxılmışdır ki, bu da respublikanın apellyasiya məhkəmələrində 2014-cü ildə baxılmış cinayət işləri üzrə məhkum edilənlərin cəmi **52,5** faizini təşkil edir.

Göründüyü kimi, 2014-cü ildə respublikanın birinci instansiya ümumi və hərbi məhkəmələri tərəfindən baxılmış cinayət işləri üzrə məhkum olunmuş şəxslər barəsindəki hökmlərin **31,9** faizinin qanuniliyi apellyasiya qaydasında, apellyasiya məhkəmələrində cinayət mühakimə icraatı qaydasında baxılmış işlər üzrə çıxarılmış hökm və qərarların **52,5** faizinin qanuniliyi kassasiya qaydasında yoxlanılmışdır**.**

Bundan əlavə, Respublikanın birinci instansiya ümumi və inzibati-iqtisadi məhkəmələri tərəfindən 2014-cü ildə **228679** işə, o cümlədən **198368** mülki işlərə, **30317** inzibati-iqtisadi işlərə baxılmışdır ki, bu da bütövlükdə 2013-cü ildə baxılmış mülki və inzibati-iqtisadi işlərdən **72327 (46,2%)** iş çoxdur.

Məlumatın əhatə etdiyi dövrdə, Respublikanın birinci instansiya ümumi və inzibati-iqtisadi məhkəmələri tərəfindən qətnamə və qərardad çıxarılmaqla baxılmış işlər üzrə məhkəmə qətnamələrindən və qərardadlarından verilmiş apellyasiya şikayəti əsasında müvafiq apellyasiya məhkəmələrində **15953** işə baxılmışdır ki, bu da birinci instansiya ümumi və inzibati-iqtisadi məhkəmələrində baxılmış işlərin cəmi **7** faizini təşkil edir.

Qeyd olunan müddətdə respublikanın apellyasiya məhkəmələrində baxılmış mülki və inzibati-iqtisadi işlər üzrə qəbul edilmiş qətnamə və qərarlardan verilmiş kassasiya şikayətləri əsasında **6656** isə Ali Məhkəmənin müvafiq kollegiyalarında kassasiya qaydasında baxılmışdır ki, bu da apellyasiya qaydasında baxılmış mülki və inzibati-iqtisadi işlərin **41,7** faizini təşkil edir.

Göründüyü kimi, Respublikanın birinci instansiya mülki və inzibati-iqtisadi məhkəmələri tərəfindən 2014-cü ildə baxılmış mülki və inzibati- iqtisadi işlər üzrə qəbul edilmiş yekun məhkəmə qərarlarının cəmi **7** faizinin qanuniliyi apellyasiya qaydasında, apellyasiya instansiyası məhkəmələrinin qətnamə və qərarlarının isə **41,7** faizinin qanuniliyi kassasiya qaydasında yoxlanılmışdır.

## Ali Məhkəmənin kollegiyalarında və Plenumunda icraat

Ali Məhkəmənin məhkəmə kollegiyalarında ədalət mühakiməsi işlərə (materiallara) qanunvericilikdə nəzərdə tutulmuş qaydada və hədlərdə kassasiya qaydasında baxılmaqla həyata keçirilir.

**Ali Məhkəmənin Mülki və İnzibati-İqtisadi Kollegiyalarında** apellyasiya instansiyası məhkəmələrinin mülki və inzibati-iqtisadi kollegiyalarının qətnamə və qərardadlarından verilən kassasiya şikayətinə və dövlət mənafeyinin müdafiəsi məqsədi ilə iddia qaldırmış prokurorun kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən apellyasiya instansiyası məhkəmələrinin inzibati-iqtisadi mübahisələrə dair işlər üzrə məhkəmə kollegiyalarının qətnamə və qərardadlarından Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

**Ali Məhkəmənin Cinayət və Hərbi Kollegiyalarında** apellyasiya instansiyası məhkəmələrinin cinayət kollegiyalarının çıxardıqları hökm və qərarlardan verilən kassasiya şikayətinə və ya kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin apellyasiya instansiyası məhkəməsinin cinayət kollegiyasının hökm və ya digər yekun aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

**Ali Məhkəmənin Plenumunda** işlərə qanunla müəyyən edilmiş hallarda və qaydada Ali Məhkəmə sədrinin təqdimatı, Azərbaycan Respublikası Baş Prokurorunun protesti və ya müdafiə tərəfin şikayəti əsasında əlavə kassasiya qaydasında və ya qanuni qüvvəyə minmiş məhkəmə aktlarına hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar və yeni açılmış hallar üzrə icraat qaydasında yenidən baxılır.

## Ali Məhkəmənin kollegiyalarında 2014-cü ildə ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumat:

### 1. Ali Məhkəmənin Mülki kollegiyası




Ali Məhkəmənin Mülki kollegiyasında (bundan sonra **«MK»**) apellyasiya instansiyası məhkəmələrinin mülki kollegiyalarının qətnamə və qərardadlarından verilən kassasiya şikayətinə və dövlət mənafeyinin müdafiəsi üçün iddia qaldırmış prokurorun kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən apellyasiya instansiyası məhkəmələrinin mülki kollegiyalarının qətnamə və qərardadından Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

2014-cü ildə MK-nın icraatına **5656 iş** daxil olmuşdur ki, bu da 2013-ci ildə icraatda olmuş **5262 mülki işdən 394 iş,** yəni **7,5 %** çoxdur.

Məlumatın əhatə etdiyi dövrdə MK-nin icraatında olan **5656** mülki işdən **4911 (86,1%)** işə yekun məhkəmə qərarı çıxarılmaqla baxılmış**, 50 (1,8%) iş** MPM-nin 408-ci maddəsinə əsasən baxılmadan geri qaytarılmış, **8 (0,1%) iş** baxışdan çıxarılmış, **687 (8,4%) iş** isə 2015-cü ilə qalıq keçirilmişdir.

MK-da 2013-cü ildə yekun məhkəmə qərarı çıxarılmaqla **4532** mülki işə baxılmışdırsa, 2014-cü ildə bu işlərin sayı **379 (8,4** %) iş artaraq**, 4911** mülki iş təşkil etmişdir.

Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, MK-da 2014-cü ildə yekun məhkəmə qərarı çıxarılmaqla baxılan **4911** mülki işdən:

**-315 (6,4%)** iş **ailə münasibətləri üzrə mübahisələrə dair** ;

**-108 (2,2%)** iş **əmək münasibətləri üzrə mübahisələrə dair** ;

**-641 (13%)** iş **mənzil mübahisələri üzrə**,

**-387 (7,9%)** iş **mülkiyyət hüququ ilə əlaqədar,**

**-484 (9,9%)** iş **borc müqavilələri üzrə,**

**-260 (5,3%)** iş **torpaq mübahisələri üzrə**,

**-2716 (55,3%)** iş isə digər məsələlərlə əlaqədar olmuşdur.




MK-da 2014-cü ildə kassasiya qaydasında baxılmış **4911** iş üzrə apellyasiya instansiya məhkəmələrinin -

**- 3847 (78,3%) iş** üzrə qətnamə və ya qərardadı dəyişdirilmədən saxlanılmış;

**- 960 (13,5 %) iş** üzrə qətnamə və ya qərardad ləğv edilərək, onlardan:

**-892 (18,2%) iş** yenidən apellyasiya instansiyası məhkəməsinə qaytarılmış;

**- 54 (1,1%) iş** üzrə yeni qərar qəbul edilmiş;

**- 14 (0,3%) iş** üzrə qətnamə ləğv edilərək iş üzrə icraata xitam verilmiş;

**- 68 (1,4%) iş** üzrə qətnamə və qərardad dəyişdirilmiş;

**-36 (0,7%) iş** üzrə şikayətçi şikayətindən imtina etdiyi üçün kassasiya icraatına xitam verilmişdir.

**Ali Məhkəməsinin Mülki Kollegiyasında 2014-ci ildə 6** xüsusi qərardad **qəbul edilmişdir.**

MK-da 2014-cü ildə kassasiya qaydasında baxılmış işlərin nəticələrinə dair məlumat apellyasiya instansiyası məhkəmələri üzrə aşağıdakı cədvəldə əks olunmuşdur.

***Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasında 2014-cü ildə apellyasiya instansiyası məhkəmələrinin qətnamə və qərardadlarına kassasiya qaydasında baxılma nəticələri haqqında***

**M Ə L U M A T**

| Sıra | Apellyasiya instansiyası məhkəmələrinin adı | Cəmi baxılıb | Qüvvədə saxlanılıb | Cəmi ləğv olunub | Onlardan, ləğv olunaraq | | | | Kasasiya icraatına xitam verilib | Dəyişdirilib | Xüsusi qərar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Yeni apellyasiya baxışı | Yeni qərar | Baxılmamış saxlanılıb | İş üzrə icraata xitam verilib | | | |
| 1 | Naxçıvan MR Ali Məhkəməsi üzrə | 10 | 9 | - | - | - | - | - | 1 | - | |
| 2 | Bakı Apellyasiya Məhkəməsi üzrə | 2869 | 2221 | 577<br>20,1% | 530<br>18.5% | 38<br>1,3% | - | 9<br>0,9% | 25 | 46 | 6 |
| 3 | Gəncə Apellyasiya Məhkəməsi üzrə | 709 | 571 | 124<br>17,5% | 118<br>16,7% | 4<br>0,6% | - | 2<br>0,3% | 3 | 11 | - |
| 4 | Şırvan Apellyasiya Məhkəməsi üzrə | 435 | *362* | *67*<br>*15,4%* | *65*<br>*15%* | *1*<br>*0,2%* | - | 1<br>*0,2%* | 4 | *2* | - |
| 5 | Sumqayıt Apellyasiya Məhkəməsi üzrə | 546 | *408* | *130*<br>*23,9%* | *120*<br>*22%* | *8*<br>*1,5%* | - | *2*<br>*0,4%* | *2* | *6* | - |
| 6 | Şəki Apellyasiya Məhkəməsi üzrə | 341 | *276* | *61*<br>*17,9%* | *58*<br>*17%* | 3<br>*0,3%* | - | - | 1 | 3 | |
| 7 | AR Apellyasiya Məhkəməsinin 2007-ci il tarixədək olan qərarlarından | *1* | | *1*<br>*100%* | *1*<br>*100%* | | | | | | |
| | Cəmi | *4 911* | *3 748*<br>*78,3%* | *960*<br>*19,5%* | *892*<br>*18,2%* | *54*<br>*1,1%* | - | *14*<br>*0,3%* | *36*<br>*0,7%* | *67*<br>*1,4%* | 6 |

**Qeyd:** Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, MK-da kassasiya qaydasında baxılmış işlərin sayı 2013-cü ilə nisbətən 2014-cü ildə **8,4%** artmasına baxmayaraq,2013-cü ilə nisbətən 2014-cü ildə ləğv edilmiş qərarların sayı isə **0,7%** azalmışdır.

2014-cü ildə kassasiya şikayəti ilə müraciət edən şəxslər tərəfindən **45 334 manat** dövlət rüsumu ödənilmişdir.

Məlumatın əhatə etdiyi dövrdə Ali Məhkəmənin Mülki Kollegiyasına Azərbaycan Respublikası Ədliyyə Nazirliyindən xarici ölkələrin məhkəmələrinin qətnamələrinin tanınması və icrası ilə bağlı **96** ərizə daxil olmuş, həmin ərizələrdən **95**-nə baxılmış, **1** ərizə isə ilin sonunda daxil olduğundan 2015-ci ilə keçmişdir.

## 2. Ali Məhkəmənin İnzibati-İqtisadi kollegiyası

Ali Məhkəmənin İnzibati-iqtisadi kollegiyasında (bundan sonra «**İİK**») apellyasiya instansiyası məhkəmələrinin inzibati-iqtisadi işlər üzrə məhkəmə kollegiyalarının qətnamə və qərardadlarından verilən kassasiya şikayətinə və dövlət mənafeyinin müdafiəsi məqsədi ilə iddia qaldırmış prokurorun kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən apellyasiya instansiyası məhkəmələrinin İnzibati-iqtisadi kollegiyasında qətnamə və qərardadından Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

İİK-nın icraatına 2014-cü ildə **2138 iş (o cümlədən 445 iqtisadi , 1693 inzibati)** daxil olmuşdur ki, bu da 2013-cü ildə icraatda olmuş işlərdən **64 iş, yəni (3%)** çoxdur.

İİK-nın icraatında olan **2138** işdən **1745 (81,6%)** (o cümlədən **396** iqtisadi, **1349** inzibati) **işə** yekun, məhkəmə qərarı çıxarılmaqla baxılmış, **8 (0,4%) iş** baxılmadan geri qaytarılmış, **120 (5,6%) iş** üzrə kassasiya şikayəti mümkün sayılmamış, **265 (12,4%) iş** isə ilin sonunda daxil olduğu üçün 2015-ci ilə keçirilmişdir.




İİK-da 2013-cü ildə yekun məhkəmə qərarı çıxarılmaqla **1611** işə baxıldığı halda, 2014-cü ildə yekun məhkəmə qərarı çıxarılmaqla **1745** işə baxılmışdır ki, bu da 2013-cü ilə nisbətən **134 (8,3%)** iş çoxdur.

Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, **İİK-da** 2014-cü ildə yekun məhkəmə qərarı çıxarılmaqla **baxılan 1745 işdən:**

**- 134 (7,7%)** iş əmək münasibətləri üzrə mübahisələrə dair;

- **203 (11,6%)** iş vergi ödəmələri;

- **63 (3,6%) iş** mənzil mübahisələri üzrə;

**- 197 (11,3%)** iş torpaq mübahisələri üzrə,

**- 105 (6%)** iş borc mübahisələri;

**- 27 (1,5%)** iş kredit müqaviləsi üzrə,

**- 27 (1,5%)** iş sığorta müqaviləsi üzrə;

- **261 (15%)** iş müvafiq icra hakimiyyəti və yerli özünüidarə orqanlarının, sair orqan və təşkilatların, onların vəzifəli şəxslərinin qərarlarından, hərəkət və hərəkətsizliklərindən verilən ərizələr üzrə,

**- 502 (33,3%)** iş isə digər məsələlərlə əlaqədar olmuşdur.

Məlumatın əhatə etdiyi dövrdə İİK-da kassasiya qaydasında baxılmış **1745 iş** üzrə çıxarılmış yekun məhkəmə qərarları ilə apellyasiya instansiyası məhkəmələrinin:




**-1 129 (64,7%)** iş üzrə qətnamə və ya qərardadı dəyişdirilmədən saxlanılmış;

**-584 (33,5%)** iş üzrə qətnamə və ya qərarları ləğv edilərək, onlardan:

**-353 (18,3%)** iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş yenidən apellyasiya instansiyası məhkəməsinə qaytarılmış;

**-99 (5,7%)** iş üzrə yeni qərar qəbul edilmiş;

**-121 (6,9%)** iş üzrə iddia (ərizə) mümkün sayılmamış;

**-11 (0,6%)** iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə icraata xitam verilmişdir;

**-7 (0,4%)** iş üzrə qətnamə və ya qərardad dəyişdirilmiş;

**-25 (0,7%)** iş üzrə isə kassasiya icraatına xitam verilmişdir.

Bu məlumatlar aşağıdakı cədvəldə əks olunmuşdur.

***Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasında 2014-cü ildə apellyasiya instansiyası məhkəmələrinin qətnamə və qərardadlarına kassasiya qaydasında baxılma nəticələri haqqında***

**M Ə L U M A T**

| Sıra | Apellyasiya instansiyası məhkəməsinin adı | Cəmi baxılıb | Qüvvədə saxlanılıb | Cəmi ləğv olunub | Onlardan, ləğv olunaraq: Yeni apellyasiya baxışı | Yeni qərar | Baxılmamış saxlanılıb | İş üzrə icraata xitam | Kasasiya icraatına xitam | Dəyişdirilib | Xüsusi qərar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Bakı Apellyasiya Məhkəməsi | 1242 | 832 | 381<br>30,6% | 228<br>18,3% | 70<br>5,6% | 75<br>6,1% | 8<br>0,6% | 23 | 6 | - |
| 2 | Gəncə Apellyasiya Məhkəməsi | 153 | 830 | 69<br>45,1% | 47<br>30,7% | 3<br>2% | 19<br>12,4% | - | 1 | - | - |
| 3 | Şirvan Apelyasiya Məhkəməsi | 109 | 66 | 42<br>38,5% | 25<br>22,9% | 6<br>5,5% | 10<br>9,2% | 1<br>0,9% | 1 | 1 | - |
| 4 | Sumqayıt Apellyasiya Məhkəməsi | 128 | 77 | 51<br>39,8% | 29<br>22,6% | 14<br>10,9% | 6<br>5,5% | 10<br>9,2% | 1<br>0,9% | 1 | - |
| 5 | Şəki Apellyasiya Məhkəməsi | 107 | 66 | 40<br>37,3% | 23<br>21,5% | 6<br>5,6% | 10<br>9,3% | 1<br>0,9% | - | 1 | - |
| 6 | Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi | 6 | 5 | 1<br>16,7% | 1<br>16,7% | - | - | - | - | - | - |
| | Cəmi | 1745 | 1129<br>64,7% | 584<br>33,5% | 353<br>18,3% | 99<br>5,7% | 121<br>6,9% | 11<br>0,6% | 25<br>0,7% | 7<br>0,4% | - |

***Qeyd:*** *Statistik məlumatlardan görünür ki, apellyasiya instansiyası məhkəmələrinin ləğv edilmiş qətnamə və ya qərardadkarının sayı 2013-cü ilə nisbətən, 2014-cü ildə* ***144*** *iş üzrə****(32,7%)*** *çox olmuşdur.*

*Bu müddətdə kassasiya şikayəti ilə müraciət edən şəxslər tərəfindən* ***8912*** *manat dövlət rüsumu ödənilmişdir.*

*Məlumatın əhatə etdiyi dövrdə Ali Məhkəmənin İİK-na Azərbaycan Respublikası Ədliyyə Nazirliyindən xarici dövlətlərin məhkəmələrinin qətnamələrinin tanınması və icrası ilə bağlı* ***11*** *ərizə daxil olmuş, həmin ərizələrin* ***9-na*** *baxılaraq, onların* ***1-ü*** *üzrə qətnamələrin tanınması və icrası təmin edilmiş,* ***8*** *ərizə üzrə tanınmadan imtina edilmiş,* ***1*** *iş üzrə ərizə baxılmadan geri qaytarılmışdır.*

## Ali Məhkəmənin İnzibati-İqtisadi Kollegiyasında baxılmış iqtisadi işlər üzrə məlumat

Məlumatların əhatə etdiyi dövrdə Ali Məhkəmənin İİK-nın icraatına iqtisadi mübahisələrə dair **445** iş daxil olmuşdur ki, bu da **2013-cü** ildə icraatda olmuş iqtisadi işlərinin ümumi sayından **23 iş (4,9%)** azdır.

İİK-nın icraatında olan **445** iqtisadi işdən **396 (84,6%)** işə yekun məhkəmə qərarı çıxarılmaqla baxılmış, **8 (1,8%)** iş baxılmadan geri qaytarılmış, **41 (9,2%)** iş isə icraata ilin sonunda daxil olduğundan 2015-ci ilə qalıq keçirilmişdir.

İİK-da 2014-cü ildə yekun məhkəmə qərarı çıxarılmaqla mahiyyəti üzrə baxılmış iqtisadi işlərin sayı 2013-cü illə müqayisədə stabil olmuşdur.

İİK-da 2014-cü ildə yekun məhkəmə qərarı çıxarılmaqla baxılan **396 işdən:**

- **18 (4,5%)** iş vergi ödəmələri,
- **23 (5,8%)** iş torpaq mübahisələrin,
- **87 (22%)** iş borc mübahisələri,
- **22 (5,6%)** iş kredit müqaviləsi üzrə,
- **27 (6,8%)** iş sığorta müqaviləsi üzrə,
- **28 (7,1%)** iş müvafiq icra hakimiyyəti və yerli özünüidarə orqanlarının, sair orqan və təşkilatların, onların vəzifəli şəxslərinin qərarlarından, hərəkət və hərəkətsizliklərindən olan ərizələr üzrə,
- **184 (46,5%)** iş isə digər məsələlərlə əlaqədar olmuşdur.

İİK-da kassasiya qaydasında baxılmış **396** iqtisadi işlər üzrə çıxarılmış yekun məhkəmə qərarları ilə apellyasiya instansiya məhkəmələrinin

- **252 (63,6%)** iş üzrə qətnamə və ya qərardadı dəyişdirilmədən saxlanılmış;
- **138 (34,8%)** iş üzrə qətnamə və ya qərardad ləğv edilərək, Onlardan:
- **104 (26,3%)** iş yenidən apellyasiya instansiyası məhkəməsinə qaytarılmış;
- **23 (5,8%)** iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə yeni qərar qəbul edilmiş;
- **2 (0,5%)** iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə iddia (ərizə) baxılmamış saxlanılmış;
- **9 (2,3%)** iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə icraata xitam verilmiş;
- **2 (0,5%)** iş üzrə qətnamə və ya qərardad dəyişdirilmiş;
- **4 (1%)** iş üzrə isə kassasiya icraatına xitam verilmişdir.

Bu məlumatlar apellyasiya məhkəmələri üzrə aşağıdakı cədvəldə əks olunmuşdur.

*Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-iqtisadi kollegiyasında 2014-cü ildə apellyasiya instansiyası məhkəmələrinin iqtisadi mübahisələrə dair işlər üzrə qətnamə və qərardadlarına kassasiya qaydasında baxılma nəticələri haqqında*

**M Ə L U M A T**

| Sıra | Apellyasiya instansiyası məhkəməsinin adı | Cəmi baxılıb | Qüvvədə saxlanılıb | Cəmi ləğv olunub | Onlardan, ləğv olunaraq | | | | Kassasiya icraatına xitam | Dəyişdirilib | Xüsusi qərar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Yeni apellyasiya baxışı | Yeni qərar | Baxılmamış saxlanılıb | İş üzrə icraata xitam verilib | | | |
| 1 | **Bakı** Apelyasiya Məhkəməsi | **295** | **190** | **100** 33,9% | **74** 25,1% | **17** 5,8% | **2** 0,7% | **7** 2,4% | **3** | **2** | |
| 2 | **Gəncə** Apelyasiya Məhkəməsi | **28** | **18** | **10** 35,7% | **10** 35,7% | - | - | - | - | - | |
| 3 | **Şırvan** Apelyasiya Məhkəməsi | **17** | **11** | **5** 29,4% | **5** 29,4% | - | - | - | **1** | - | |
| 4 | **Sumqayıt** Apelyasiya Məhkəməsi | **33** | **17** | **16** 48,5% | **10** 30,3% | **5** 15,2% | - | **1** 3% | - | - | |
| 5 | **Şəki** Apelyasiya Məhkəməsi | **21** | **14** | **7** 33,3% | **5** 23,8% | **1** 4,8% | - | **1** 4,8% | - | - | |
| 6 | **Naxçıvan MR Ali** Məhkəməsi | **2** | **2** | - | - | - | - | - | - | - | |
| **Cəmi** | | **396** | **252** 63,6% | **138** 34,8% | **104** 26,3% | **23** 5,8% | **2** 0,5% | **9** 2,3% | **4** 1% | **2** 0,5% | - |

**Qeyd:** Statistik məlumatlardan görünür ki, apellyasiya instansiyası məhkəmələrinin iqtisad işləri üzrə ləğv edilmiş qətnamə və ya qərardadlarının sayı 2013-cü ilə nisbətən, 2014-cü ildə **42 iş üzrə(43,7%)** artmışdır.

2014-cü ildə kassasiya şikayəti ilə müraciət edən şəxslər tərəfindən **3672 manat** dövlət rüsumu ödənilmişdir.

**Ali Məhkəmənin İnzibati-İqtisadi kollegiyasında baxılmış inzibati işlər üzrə məlumat**

Məlumatın əhatə etdiyi dövrdə Ali Məhkəmənin İİK-nın icraatına 1693 inzibati iş daxil olmuşdur ki, bu da 2013-cü ildə icraatda olmuş inzibati işlərdən 87 iş, 5,4% çoxdur.

Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, İİK-nın icraatında olmuş 1693 inzibati işdən 1349 (79,7%) işə yekun məhkəmə qərarı qəbul edilməklə mahiyyəti üzrə baxılmış, 120 (7%) iş üzrə kassasiya şikayəti mümkün sayılmamış, 224 (13,2%) iş 2014-cü ilin sonunda daxil olduğundan növbəti ilə keçmişdir.

İİK-da 2014-cü ildə yekun məhkəmə qərarı qəbul edilməklə baxılan **1349** inzibati işdən:

**- 130 (9,6%)** iş; əmək münasibətləri üzrə;

**- 61 (4,5%)** iş mənzil mübahisələri üzrə,

**-129 (9,6%)** mülkiyyət hüququ ilə əlaqədar mübahisələr üzrə

**- 174 (12,9%)** iş torpaq mübahisələri üzrə,

**- 185 (13,7%)** iş vergi ödəmələri üzrə,

**- 18 (1,3%) i**ş borc müqavilələri üzrə mübahisələrə dair;

- **189 (15,5%) iş** müvafiq icra hakimiyyəti və yerli özünüidarə orqanlarının, sair orqan və təşkilatların, onların vəzifəli şəxslərinin qərarlarından və hərəkətlərindən (hərəkətsizliklərindən) olan ərizələr üzrə,

- **463 (34,3%) iş** isə digər mübahisələrlə əlaqədar olmuşdur.

İİK-da 2014-cü ildə kassasiya qaydasında baxılmış **1349** inzibati iş üzrə yekun məhkəmə qərarları ilə apellyasiya instansiya məhkəmələrinin

- **887 (65,4%)** iş üzrə qərar və ya qərardad dəyişdirilmədən saxlanılmışdır;

**-446 (33,1 %)** iş üzrə qərar və ya qərardad ləğv edilərək, Onlardan:

- **249 (18,5%)** iş üzrə qərar və ya qərardad ləğv edilərək iş yenidən apellyasiya instansiyası məhkəməsinə qaytarılmış;

- **76 (5,6%)** iş üzrə qərar və ya qərardad ləğv edilərək iş üzrə yeni qərar qəbul edilmiş;

- **119 (8,8%)** iş üzrə qərar və ya qərardad ləğv edilərək iş üzrə iddia (ərizə) baxılmamış saxlanılmış;

- **2 (0,1%)** iş üzrə qərar və ya qərardad ləğv edilərək iş üzrə icraata xitam verilmişdir;

- **5 (0,4%)** iş üzrə qərar və ya qərardad dəyişdirilmiş;

- **21 (1,6%)** iş üzrə isə kassasiya icraatına xitam verilmişdir.

Bu məlumatlar apellyasiya məhkəmələri üzrə aşağıdakı cədvəldə əks olunmuşdur.

*Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-iqtisadi kollegiyasında 2014-cü ildə apellyasiya instansiyası məhkəmələrinin inzibati işlər üzrə qərar və qərardadlarına kassasiya qaydasında baxılma nəticələri haqqında*

**M Ə L U M A T**

| Sıra | Apellyasiya instansiyası məhkəməsinin adı | Cəmi baxılıb | Qüvvədə saxlanılıb | Cəmi ləğv olunub | Onlardan, ləğv olunaraq | | | | Kassasiya icraatına xitam | Dəyişdirilib | Xüsusi qərar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Yeni apellyasiya baxışı | Yeni qərar | Baxılmamış saxlanılıb | İş üzrə icraata xitam | | | |
| 1 | Bakı Apellyasiya Məhkəməsi | 947 | *642* | *281*<br>*29,7%* | *154*<br>*16,3%* | *53*<br>*5,6%* | *73*<br>*7,7%* | *1*<br>*0,1%* | *20* | *4* | |
| 2 | Gəncə Apellyasiya Məhkəməsi | 125 | *65* | *59*<br>*47,2%* | *37*<br>*29,6%* | *3*<br>*2,4%* | 19<br>*15,2%* | | 1 | - | |
| 3 | Şirvan Apellyasiya Məhkəməsi | 92 | *55* | *37*<br>*40,2%* | *20*<br>*21,7%* | *6*<br>*6,5%* | 10<br>10,9% | *1*<br>*0,1%* | - | - | |
| 4 | Sumqayıt Apellyasiya Məhkəməsi | 95 | *60* | *35*<br>*36,8%* | *19*<br>*20%* | *9*<br>*9,5%* | 7<br>7,4% | - | - | 1 | |
| 5 | Şəki Apellyasiya Məhkəməsi | 86 | *52* | *33*<br>*38,4%* | *18*<br>*20,9%* | *5*<br>*5,8%* | 10<br>11,6% | - | - | | |
| 6 | Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi | 4 | *3* | *1*<br>*25%* | *1*<br>*25%* | - | - | - | - | - | |
| Cəmi | | *1349* | *877*<br>*65%* | *446*<br>*33,1%* | *249*<br>*18,5%* | *76*<br>*5,6%* | *119*<br>*8,8%* | *2*<br>*0,1%* | 2 1<br>0,6% | *5*<br>*0,4%* | - |

**QEYD:** Statistik məlumatlardan görünür ki, apellyasiya instansiyası məhkəmələrinin **inzibati işlər üzrə** ləğv edilmiş qətnamə və ya qərardadlarının sayı 2013-cü ilə nisbətən, 2014-cü ildə **102 iş (29,7%) artmışdır**.

**2014-**cü ildə inzibati işlər üzrə kassasiya şikayəti ilə müraciət edən şəxslər tərəfindən **5989 manat 40 qəpik** dövlət rüsumu ödənilmişdir**.**

## 3. Ali Məhkəmənin Cinayət kollegiyası




Ali Məhkəmənin Cinayət kollegiyasında (bundan sonra **«CK»**) apellyasiya instansiyası məhkəmələrinin cinayət kollegiyaları tərəfindən çıxarılmış hökm və qərarlardan verilən kassasiya şikayətinə və ya kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin apellyasiya instansiyası məhkəməsinin cinayət işləri və inzibati xətalara dair işlər üzrə məhkəmə kollegiyasının hökm və ya digər yekun aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

CK-da müharibə cinayətləri, hərbi xidmət əleyhinə olan cinayətlər və habelə hərbi qulluqçular tərəfindən törədilmiş cinayət işləri, məhkəmyədək sadələşdirilmiş və ya xüsusi ittiham qaydasında şikayət üzrə materiallar istisna olmaqla, qalan cinayət işlərinə (materiallara) kassasiya qaydasında baxılır.

CK-ya 2014-cü ildə cəmi **2314 nəfər** haqqında **2071 iş, o cümlədən 1804 (78%)** nəfər haqqında **1632 (78,8%)** iş kassasiya şikayətinə, **510 (22%)** nəfər haqqında **439 (21,2%)** iş kassasiya protestinə əsasən daxil olmuşdur.

Məlumatın əhatə etdiyi dövrdə CK-da yekun məhkəmə qərarı çıxarılmaqla **2045 (88,4**%) nəfər haqqında **1827 (88,2%)** cinayət işinə baxılmış, **83 (3,6%) nəfər** haqqında 7**9 (3,8%)** iş üzrə kassasiya şikayəti qanunvericilikdə nəzərdə tutulan tələblərə cavab vermədiyindən baxılmamış saxlanılmış, **186 (**8%) nəfər haqqında **165 (8%) iş** isə ilin sonunda daxil olduğundan 2015-ci ilə keçirilmişdir.

2014-cü ildə CK-da kassasiya qaydasında baxılmış **2045 nəfər** haqqında **1827 iş üzrə** qəbul edilmiş yekun məhkəmə qərarları ilə apellyasiya instansiyası məhkəmələrinin:

**- 1300(63,9%) nəfər** haqqında **1180 (64,6%)** iş üzrə qərarları dəyişdirilmədən saxlanılmış;

**- 311** nəfər haqqında **256 (14%) iş** üzrə qərarlar ləğv olunmuş;
Onlardan:
**- 306 (15%) nəfər** haqqında **252 (13,8%)** iş yeni apellyasiya baxışına qaytarılmış;




**- 5 (0,2% )** nəfər haqqında 4(0,2%) iş üzrə icraata xitam verilmiş;
**- 68 (3,3 %)** nəfər haqqında **60 (3,3%)** iş üzrə qərarlar dəyişdirilmiş;
**-72(3,5%)** nəfər haqqında **68(3,6%)** iş üzrə kassasiya şikayəti verilmə müddəti bərpa olunmamış;
**- 287 (14,3%)** nəfər haqqında **260 (14,3%)** iş üzrə kassasiya şikayəti məhkumların və onların müdafiəçilərinin ərizələrinə əsasən geri qaytarılmış;
**- 7 (0,3%)** nəfər haqqında **3(0,2%)** iş üzrə kassasiya icraatına xitam verilmişdir.

Qeyd olunan məlumatlar apellyasiya instansiyası məhkəmələri üzrə ayrı-ayrılıqda aşağıdakı cədvəldə əks olunmuşdur.

***Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət kollegiyasında 2014-cü ildə apelyasiya instansiyası məhkəmələrinin hökm və qərarlarına kassasiya qaydasında baxılması nəticələrinə dair***

**M Ə L U M A T**

| Sıra | Apellyasiya instansiyası məhkəməsinin adı | Cəmi baxılıb | Qüvvədə saxlanılıb | Cəmi ləğv olunub, onlardan | Ləğv olunub: Yeni apellyasiya | Ləğv olunub: İş üzrə icraata xitam verilib | Kassasiya icraatına xitam verilib | Dəyişdirilib | Kassasiya şikayəti qeri qaytarılıb | Müddət bərpa edilməyib | Xüsusi qərar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | **Bakı Apelyasiya Məhkəməsi** | **1 243** | *792* | *146*<br>*11,5%* | *143*<br>*11,5%* | *3*<br>*0,2%* | *7* | *49* | *205* | *44* | **3** |
| 2 | **Gəncə Apelyasiya Məhkəməsi** | **173** | *112* | *27*<br>*15,6%* | *27*<br>*15,6%* | - | - | *7* | *21* | *6* | |
| 3 | **Şirvan Apelyasiya Məhkəməsi** | *309* | *207* | *46*<br>*14,9%* | *45*<br>*14,6%* | *1*<br>*0,3%* | - | *5* | *38* | *13* | **1** |
| 4 | **Sumqayıt Apelyasiya Məhkəməsi** | **212** | *114* | *79*<br>*37,3%* | *78*<br>*36,8%* | **1**<br>0,5% | - | *3* | *12* | *4* | |
| | **Şəki Apelyasiya Məhkəməsi** | **102** | *72* | *13*<br>*12,7%* | **13**<br>12,7% | - | - | **2** | **11** | **4** | |
| 6 | **Naxçıvan MR Ali Məhkəməsi** | **4** | *3* | - | - | - | - | **1** | - | - | |
| 7 | **AR Apellyasiya Məhkəməsi**<br>***2007-ci il 16 iyul tarixədək olan qərarlardan*** | **2** | - | - | - | - | - | *1* | - | **1** | |
| | **Cəmi** | **2 045** | ***1 300***<br>*63,6%* | ***311***<br>*15,2%* | ***306***<br>*15%* | ***5***<br>*0,2%* | ***7***<br>*0,3%* | ***68***<br>*3,3%* | ***287***<br>*14%* | ***72***<br>*3,5%* | **4** |

**Qeyd:** Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, 2013-cü ilə nisbətən 2014-cü ildə kassasiya qaydasında mahiyyəti üzrə baxılan işlərin sayı **268 (17,2%) iş** artmışdır.

Buna müvafiq olaraq 2013-cü ilə nisbətən 2014-cü ildə ləğv olunmuş hökmlər, işlərin sayına görə **25**, nəfərlərin sayına görə isə **42** nəfər çox olmuşdur.

Bundan əlavə Ali Məhkəmənin Cinayət Kollegiyasının hakimləri tərəfindən 2014-cü ildə İnsan hüquqları üzrə Avropa Məhkəməsində kommunikasiya edilən Azərbaycan Respublikasının vətəndaşlarının şikayətləri üzrə Ali Məhkəməyə göndərilmiş sorğu məktubları əsasında **16** nəfər haqqında cinayət işləri tələb edilərək öyrənilmiş və sorğularda qoyulmuş suallara cavab məktubları hazırlanaraq Avropa Məhkəməsi yanında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsinə göndərilmişdir.

Məlumatın əhatə etdiyi dövrdə Ali Məhkəmənin Cinayət kollegiyasının hakimləri tərəfindən **87 nəfərin** əlavə kassasiya şlkayətləri və **17** nəfərin yeni açılmış hallar üzrə ərizələri ilə bağlı qərar layihələri hazırlanmış, əfv komissiyasından Ali Məhkəməyə daxil olmuş materiallar əsasında **362 rəy** hazırlanaraq Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının hüquq mühafizə orqanları ilə iş şöbəsinin əfv məsələləri üzrə sektoruna göndərilmişdir.

Cinayəöt kollegiyasının sədri tərəfindən 2014-cü il ərzində vətəndaşlar, müxtəlif hökümət və qeyri-hökümət təşkilatlarından daxil olmuş 30-dan çox ərizə və sorğuya cavab verilmiş, Azərbaycan Respublikası Baş Prokurorluğunun "İbtidai istintaq, təhqiqat orqanları və məhkəmələr tərəfindən maddi sübutların və digər əşyaların uçotu, saxlanması, təhvil verilməsi haqqında" Təlimat layihəsinə dair rəy verilmiş, "Kütləvi informasiya vasitələri haqqında", "İnformasiya əldə edilməsi haqqında" Azərbaycan Respublikası Qanunlarına, "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 102.2 və 340-cı maddələrinə dəyişikliklər edilməsi haqqında" Qanun layihələrinə dair təkliflər hazırlanaraq Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq Mühafizə Orqanları ilə iş şöbəsinə göndərilmiş, "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 190, 233-1 və 200-2-ci maddələrində dəyişikliklər edilməsi haqqında" və "Azərbaycan Respublikası İnzibati-Xətalar Məcəlləsinin 120-1.1, 228-2 və 360.1-ci maddələrində dəyişikliklər edilməsi haqqında" Qanun layihələrinə dair rəylər hazırlanaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim edilmiş, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi tərəfindən təklif olunan "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 177.2 və 326-cı maddələrində dəyişikliklər edilməsi haqqında" Qanun layihəsinə dair rəy hazlrlanaraq Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq Mühafizə Orqanları ilə iş şöbəsinə təqdim edilmişdir.

Bundan əlavə "Elektron məhkəmə informasiya sisteminin yaradılması haqqında"Azərbaycan Respublikası Prezidentinin 13 fevral 2014-cü il tarixli Sərəncamının icrası ilə bağlı bir sıra tədbirlərin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Vəkillər Kollegiyasına, Respublikanın birinci və apellyasiya instansiyaları məhkəmələrinə tövsiyə xarakterli məktublar göndərilmişdir.

Eyni zamanda Azərbaycan Respublikası Baş Prokurorluğuna "İctimai təhlükəli əməllər törətmiş, psixi pozuntusu olan şəxslər barəsində təyin olunmuş tibbi xarakterli məcburi tədbirlərin tətbiqi Qaydası" və həmin "Qaydanın" təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərar layihələri öyrəniıərək ona dair hazırlanmış rəy və təkliflər Azərbaycan Respublikası Səhiyyə Nazirliyinə göndərilmişdir.

## 4. Ali Məhkəmənin Hərbi kollegiyası

Ali Məhkəmənin Hərbi kollegiyasında (bundan sonra «HK») apellyasiya instansiyası məhkəmələrinin hərbi kollegiyalarının çıxardıqları hökm və qərarlardan verilən kassasiya şikayətinə və kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin apellyasiya instansiyası məhkəmələrinin hərbi məhkəmələrin işləri üzrə məhkəmə kollegiyalarının çıxardıqları hökm və ya digər yekun aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

2014-cü ildə HK-nın icraatında olan **219** nəfər haqqında **185** cinayət işindən **175 (79,9%)** nəfər haqq**ında 152 (82,2%)** iş kassasiya şikayəti, **44 (20,1%)** nəfər haqqında **33 (17,8%)** iş isə kassasiya protesti ilə əlaqədar olmuşdur.

Məlumatın əhatə etdiyi dövrdə HK-ya daxil olmuş **219** nəfər haqqında olan **185 cinayət işindən: 191 (87,2%)** nəfər haqqında **163 (88,1%)** cinayət işinə yekun məhkəmə qərarı çıxarılmaqla baxılmış, kassasiya şikayəti üzrə **28 (12,8%) nəfər haqqında 22 (11,9%)cinayət işi** isə 2015-ci ilə qalıq keçmişdir.

Məlumatın əhatə etdiyi dövrdə hərbi kollegiyada baxılmış işlərin sayı 2013-cü ilə nisbətən 39(31,4%) iş çoxalmışdır.

2014-cü ildə HK-da kassasiya qaydasında mahiyyəti üzrə baxılmış **191** nəfər haqqında **163 iş üzrə** yekun məhkəmə qərarları ilə apellyasiya instansiyası məhkəmələrinin:

**- 15 (7,9%)** nəfər haqqında **14 (8,6%)** iş üzrə qərarı ləğv olunaraq yeni apellyasiya baxışına qaytarılmış;

**- 24 (12,6%)** nəfər haqqında **20 (12,3%)** iş üzrə qərarlar isə məhkumlara təyin edilmiş cəzalarla əlaqədar dəyişdirilmiş;

**- 5 (2,6%)** nəfər haqqında **5 (3%)** iş üzrə kassasiya şikayəti verilmə müddəti bərpa olunmamış;

**- 40 (20,9%)** nəfər haqqında **37 (22,7%)** iş üzrə kassasiya şikayəti məhkumların və onların müdafiəçilərinin ərizələrinə əsasən geri qaytarılmış;

**- 107 (56%)** nəfər haqqında **87 (53,4%)** iş üzrə apellyasiya instansiyası məhkəmələrinin qərarları dəyişdirilmədən saxlanılmış.

Qeyd olunan məlumatlar apellyasiya instansiyası məhkəmələri üzrə ayrı-ayrılıqda aşağıdakı cədvəldə əks olunmuşdur.

*Azərbaycan Respublikası Ali Məhkəməsinin Hərbi kollegiyasında 2014-cü ildə apelyasiya instansiyası məhkəmələrinin hökm və qərarlarına kassasiya qaydasında baxılması nəticələrinə dair*

**M Ə L U M A T**

| Sıra | Apellyasiya instansiyası məhkəməsinin adı | Cəmi baxılıb (nəf.) | Qüvvədə saxlanılıb | Cəmi ləğv olunub, onlardan | Ləğv olunub: Yeni apellyasiya | Ləğv olunub: İş üzrə icraata xitam verilib | Kassasiya icraatına xitam verilib | Dəyişdirilib | Kassasiya şikayəti qeri qaytarılıb | Müddət bərpa edilməyib | Xüsusi qərar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | **Bakı Apelyasiya Məhkəməsi** | **36** | *21* | *5*<br>*13,9%* | *5*<br>*13,9%* | - | - | *3* | *6* | *1* | |
| 2 | **Gəncə Apelyasiya Məhkəməsi** | **80** | *44* | *4*<br>*5%* | **4**<br>**5%** | - | - | *7* | *24* | *1* | |
| 3 | **Şırvan Apelyasiya Məhkəməsi** | *40* | *22* | *2*<br>*5%* | *2*<br>*5%* | - | - | *10* | *5* | *1* | |
| 4 | **Sumqayıt Apelyasiya Məhkəməsi** | **17** | *12* | *3*<br>*17,6%* | *3*<br>*17,6%* | - | - | *1* | - | *1* | |
| 5 | **Şəki Apelyasiya Məhkəməsi** | **8** | *1* | *1*<br>*12,5%* | **1**<br>**12,5%** | - | - | **3** | **3** | - | |
| 6 | **Naxçıvan MR Ali Məhkəməsi** | **8** | *7* | - | - | - | - | - | **1** | - | |
| 7 | **AR Apelyasiya Məhkəməsi**<br>2007-ci il 16 iyul tarixdək olan qərarlardan | **2** | - | - | - | - | - | - | **1** | **1** | |
| | **Cəmi** | **191** | *107*<br>*56%* | *15*<br>*7,9%* | *15*<br>*7,9%* | - | - | *24*<br>*12,6%* | *40*<br>*20,9%* | *5*<br>*2,6%* | |

**QEYD:** Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, HK-da 2013-cü ilə nisbətən 2014-cü ildə kassasiya qaydasında baxılmış işlərin və şəxslərin sayının artmasına baxmayaraq , ləğv edilən qərarların sayı **9** nəfər barəsində azalmışdır.

Bundan əlavə məlumatın əhatə etdiyi dövrdə Ali Məhkəmənin Hərbi Kollegiyasının hakimləri tərəfindən əlavə kassasiya şikayəti əsasında **3 iş üzrə**, yeni açılmış hallarla bağlı **1 iş üzrə** qərar layihəsi hazırlanaraq Ali Məhkəmənin sədrinə təqdim olunmuş, əfv komissiyasından daxil olmuş materiallar əsasında **162 rəy** hazırlanaraq Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin əfv məsələləri üzrə sektoruna göndərilmişdir.






## *5. Ali Məhkəmənin Plenumu*

### Ali Məhkəmənin Plenumunun işi haqqında məlumat

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 79-cu maddəsinə əsasən **Ali Məhkəmənin Plenumunda işlərə** qanunla müəyyən edilmiş hallarda və qaydada Ali Məhkəmə sədrinin təqdimatı, Azərbaycan Respublikası Baş Prokurorunun protesti və ya müdafiə tərəfin şikayəti əsasında əlavə kassasiya qaydasında və ya qanuni qüvvəyə minmiş məhkəmə aktlarına hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar və yeni açılmış hallar üzrə icraat qaydasında yenidən baxılır.

2014-cü ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun 6 iclası keçirilmişdir.

**24 yanvar 2014-cü il tarixli** Plenum iclasında Azərbaycan Respublikası Ali Məhkəməsi yanında Elmi-Məsləhət Şurasının tərkibinin təsdiq edilməsi barədə və "Azərbaycan Respublikasının Konstitusiyasında və digər qanunlarında nəzərdə tutulmuş "ali hüquq təhsilli" anlayışının şərh edilməsi barədə" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinə sorğu verilməsi haqqında";

**21 fevral 2014-cü il tarixli** Plenum iclasında "Xüsusi ittiham qaydasında şikayətlərə dair işlərə baxılması üzrə məhkəmə təcrübəsi haqqında" ;

**16 may 2014-cü il tarixli** Plenum iclasında "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikasının Milli Məclisinə təkliflər verilməsi haqqında" və "Azərbaycan Respublikası Ali Məhkəməsinin qanuni qüvvəyə minmiş məhkəmə aktlarına yeni açılmış hallar üzrə yenidən baxılmasına dair məhkəmə tərkibinin təşkili barədə";

**16 may 2014-cü il tarixli və 30 sentyabr 2014-cü il tarixli** Plenum iclaslarında konkret işlərə baxılmışdır.

Məlumatın əhatə etdiyi dövrdə Ali Məhkəmənin Plenumunda **18 mülki işə,** inzibati və iqtisadi mübahisələrə dair **3 işə** və **1** cinayət işinə baxılıb müvafiq qərarlar qəbul edilmişdir.

Plenumda baxılmış mülki işlərdən doqquzu Konstitusiya Məhkəməsinin qərarına, yeddisi yeni açılmış hallara dair ərizəyə, biri əlavə kassasiya şikayətinə, biri isə Ali Məhkəmənin Sədrinin təqdimatına əsasən baxılmışdır.

Konstitusiya Məhkəməsinin qərarları əsasında baxılmış səkkiz mülki iş üzrə kassasiya instansiyası məhkəməsinin və apellyasiya instansiyası məhkəməsinin qərarları ləğv edilərək, işlər yeni apellyasiya baxışına, bir iş isə yenidən baxılması üçün kassasiya instansiya məhkəməsinə qaytarılmışdır.

Yeni açılmış hallar üzrə ərizələr təmin edilərək yeddi iş üzrə hər üç instansiya məhkəmələrinin aktları ləğv edilərək, mülki işlər yenidən baxılması üçün birinci instansiya məhkəməsinə göndərilmişdir.

Əlavə kassasiya şikayəti əsasında baxılmış bir mülki iş üzrə əlavə kassasiya şikayəti qismən təmin edilərək, kassasiya və apellyasiya instansiyası məhkəmələrinin qərarları qismən ləğv edilmiş, iş yeni apellyasiya baxışına göndərilmişdir.

Ali Məhkəmənin Sədrinin təqdimatı əsasında baxılmışmülki iş üzrə təqdimat təmin edilərək, kassasiya və apellyasiya instansiyası məhkəmələrinin qərarları ləğv edilmiş, iş yeni apellyasiya baxışına göndərilmişdir.

Bu müddətdə, Plenum iclasının baxışına çıxarılmış bir mülki iş üzrə əlavə kassasiya şikayəti Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun baxışından çıxarılmış, bir mülki iş üzrə isə Sədrin təqdimatı əsasında başlanmış icraata xitam verilmişdir.

Plenumda baxılmış inzibati və iqtisadi mübahisələrə dair işlərdən biri Konstitusiya Məhkəməsinin qərarına, ikisi isə Ali Məhkəmənin Sədrinin təqdimatına əsasən baxılmışdır.

Konstitusiya Məhkəməsinin qərarı əsasında baxılmış inzibati iş üzrə kassasiya və apellyasiya instansiyası məhkəmələrinin qərarları ləğv edilərək iş yeni apellyasiya baxışına göndərilmişdir.

Ali Məhkəmənin Sədrinin təqdimatı əsasında baxılmış inzibati və iqtisadi mübahisələrə dair işlər üzrə təqdimat təmin edilərək, kassasiya instansiyası məhkəməsinin və apellyasiya instansiyası məhkəmələrinin qərarları ləğv edilərək, işlər yeni apellyasiya baxışına göndərilmişdir.

Məlumatın əhatə etdiyi dövrdə Plenumda İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarına əsasən **1** cinayət işinə baxılmışdır.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarına əsasən baxılmış bir cinayət işi üzrə hər üç instansiya məhkəmələrinin aktları ləğv edilmiş iş yenidən baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinin hazırlıq iclası mərhələsində yeni məhkəmə baxışına göndərilmişdir.

**Ali Məhkəmənin Plenumunun 31 oktyabr 2014-cü il** tarixli iclasında Qazax rayon məhkəməsinin hakimi Cəbiyev Elnur Muxtar oğlunun Məhkəmə-Hüquq Şurasının 17 iyul 2014-cü il tarixliqərarından verdiyi şikayətə baxılaraq şikayət təmin edilməmiş, Məhkəmə-Hüquq Şurasının qərarı dəyişdirilmədən saxlanılmışdır.

**Ali Məhkəmənin Plenumunun 24 dekabr 2014-cü il** tarixli iclasında "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanunlarında dəyişikliklər edilməsi barədə qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikasının Milli Məclisinə təkliflər verilməsi haqqında Plenum qərarı qəbul edilmişdir.

Bu məlumatlar aşağıdakı cədvəldə əks olunmuşdur.

***Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunda***
***2013 və 2014-cü illər ərzində baxılmış işlər barədə müqayisəli***
**M Ə L U M A T**

| *İşlərin baxılma əsasları* | ***2013-cü il*** | ***2014-cü il*** |
|---|---|---|
| *Əlavə kassasiya şikayətlərinə, təqdimata və yeni açılmış hallara əsasən baxılmış mülki işlər* | ***9*** | ***9*** |
| *Əlavə kassasiya şikayətlərinə, təqdimata və yeni açılmış hallara əsasən baxılmış iqtisadi və inzibati işləri* | ***-*** | ***2*** |
| *Əlavə kassasiya şikayəti və protestlərə, təqdimata və yeni açılmış hallara əsasən baxılmış cinayətişləri* | ***2*** | ***-*** |
| *Konstitusiya Məhkəməsi qərarlarına əsasən qərarları qüvvədən düşmüş hesab edilən mülki işlər* | ***4*** | ***9*** |
| *Konstitusiya Məhkəməsi qərarlarına əsasən qərarları qüvvədən düşmüş hesab edilən iqtisadi və inzibati işlər* | ***1*** | ***1*** |
| *Konstitusiya Məhkəməsi qərarlarına əsasən qərarları qüvvədən düşmüş hesab edilmiş cinayət işləri* | ***-*** | ***-*** |
| *İnsan Hüquqları Üzrə Avropa Məhkəməsinin qərarlarına əsasən mülki işlər* | ***2*** | ***-*** |
| *İnsan Hüquqları Üzrə Avropa Məhkəməsinin qərarlarına əsasən cinayət işləri* | ***3*** | ***1*** |
| ***Cəmi*** | ***21*** | ***22*** |

## Ali Məhkəmənin Aparatı və İşlər İdarəsi

Ali Məhkəmədə onun fəaliyyətinin hüquqi, təşkilati, informasiya, maddi-texniki, maliyyə və təsərrüfat təminatını həyata keçirmək üçün məhkəmə Aparatı və İşlər İdarəsi fəaliyyət göstərir.

Ali Məhkəmənin Aparatı və İşlər İdarəsi öz səlahiyyətlərinə görə birinci kateqoriya dövlət orqanının məhkəmə aparatıdır, inzibati və yardımçı vəzifə tutan dövlət qulluqçularından ibarətdir.

«Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və «Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2006-cı il tarixli Fərmanı ilə ölkəmizin məhkəmə sisteminin inkişafında keyfiyyətcə yeni mərhələ başlanmışdır.

Ali Məhkəmənin və bütövlükdə məhkəmə sisteminin informasiya sisteminin yaradılması və təkmilləşdirilməsi vahid razılaşdırılmış prinsiplər əsasında qurulmuş, Ali Məhkəmə rəhbərliyinin, aparatının və hakimlərin fəaliyyətində müasir informasiya texnologiyalarının tətbiqi keyfiyyətcə yeni mərhələyə keçidin əsasını qoymuşdur.

Ali Məhkəmədə İnformasiya texnologiyalarının tətbiqi sahəsində əsas məqsəd hakimlərin və məhkəmə aparatının fəaliyyətinin müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə müasirləşdirilməsi və prinsipcə yeni formaya keçməsi ilə məhkəmənin fəaliyyətinin effektivliyinin artırılması təşkil edir.

Bu isə «Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və «Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2006-cı il tarixli Fərmanı və Azərbaycan Respublikası Prezidentinin 11 avqust 2010-cu il tarixli 1056 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı"nın (Elektron Azərbaycan) yerinə yetirilməsi ilə birbaşa bağlıdır.

Azərbaycan Respublikası Prezidentinin 13 fevral 2014-cu il tarixli ""Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında" Sərəncamı Azərbaycan Respublikasının məhkəmə sisteminin inkişafında yeni mərhələnin başlanğıcını qoydu.

Bu sərəncamın 2-ci bəndində nəzərdə tutulan işlərin yerinə yetirilməsi məhkəmə sistemində müasir informasiya texnologiyaların tətbiqində növbəti-elektron mərhələsinə keçidi təmin edəcəkdir.

Bu sərəncamın yerinə yetirilməsi nəticəsində Azərbaycanda

- "Elektron məhkəmə" portalının yaradılması;
- "Elektron məhkəmə" portalı ilə Ali Məhkəməsinin, Apellyasiya və 1-ci instansiya məhkəmələrinin məhkəmə işlərinin işlənməsi sistemləri ilə qarşılıqlı mübadilənin təmin olunması;
- "Elektron məhkəmə" sistemi ilə "ASAN" xidmət və "Elektron hökumət" portalları arasında qarşılıqlı mübadilənin təmin olunması nəzərdə tutulur.

Bu da məhkəmə sistemində aşağıdakı işlərin yerinə yetirilməsini nəzərdə tutur:

- mühakimə üsulunun təkmilləşdirilməsi və ədalət mühakiməsinin daha da əlyetərli olmasının təmin olunması;
- hakimlərin və məhkəmə aparatının fəaliyyətinin effektivliyinin artırılması;
- məhkəmə sisteminin informasiya fəzasında eyniliyinin təmin olunması;
- əhali və təşkilatlar üçün məhkəmələrə müraciətinin asanlaşdırılması, aşkarlığının təmin olunması, məhkəmələrə getmədən internet vasitəsi ilə şikayətlərin verilməsi və işlərin gedişi barədə məlumatların operativ alınması və hətta məhkəmənin gedişinin internet vasitəsi ilə müşahidə etməsini təmin edəcəkdir.

Qeyd olunan vəzifələrin yerinə yetirilməsi məqsədi ilə Ali Məhkəmədə bir sıra işlər həyata keçirilir:

- məhkəmə işlərinin, vətəndaşların və təşkilatların ərizə və şikayətlərinin baxılma müddətinin müasir informasiya-kommunikasiya texnologiyalarının – internet, elektron sənəd dövriyyəsi, böyük həcmli məlumatların işlənməsi və saxlanması, video-konfrans əlaqə və s. texnologiyaların kompleks şəkildə tətbiqi vasitəsi ilə qısaldılması;
- məhkəmədə kargüzarlığın və məhkəmə statistikasının məlumatlarının keyfiyyətinin artırılması;
- Ali Məhkəmənin digər instansiya məhkəmələri, Respublika Prokurorluğu, Ədliyyə Nazirliyi və digər dövlət idarəetmə orqanları ilə məlumat mübadiləsinin operativliyinin artırılması;

- Qərarların qəbul edilməsi  üçün müasir analitik metodlarının tətbiqi vasitəsi ilə Ali Məhkəmənin fəaliyyətinin bütün sahələrində administrativ-idarəetmə proseslərinin məlumat təminatının keyfiyyətinin yüksəldilməsi;

- Ali Məhkəmənin avtomatlaşdırılmış məlumat sisteminin təhlükəsizliyinin kompleks şəkildə təmin olunması;

- Avtomatlaşdırılmış idarəetmə sisteminin qarşısında qoyulmuş tələblərə uyğun olaraq informasiya vasitələrinin  etibarlılığının və səmərəliliyinin kompleks şəkildə artırılması, təkmilləşdirilməsi və informasiya-kommunikasiya vasitələrinin inkişaf etdirilməsi üçün maddi-texniki və maliyyə təminatının olması;

- müasir informasiya texnologiyalarının tətbiqi sahəsində effektivliyinin artırılması məqsədi ilə hakimlərin və məhkəmə aparatı işçilərinin ixtisasının artırılması;

Azərbaycan Respublikası Prezidentinin 11 avqust 2010-cu il tarixli 1056 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı"nda (Elektron Azərbaycan) və Azərbaycan Respublikası Prezidentinin 13 fevral  2014-cu il tarixli ""Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında" Sərəncamının 2-ci bəndində nəzərdə tutulmuş işlərin yerinə yetirilməsi, "Elektron məhkəmə" sisteminin yaradılması, "Ali Məhkəmənin "Elektron kargüzarlıq və sənəd dövriyyəsi" sisteminin təkmilləşdirilməsi, daha müasir texnologiyaların tətbiqi ilə beynəlxalq standartlara uyğunlaşdırılması"  bəndinin yerinə yetirilməsi məqsədi ilə informasiya texnologiyalarının tətbiqi sahəsində müəyyən işlər yerinə yetirilmiş və 2014-2016-ci illərdə yerinə yetiriləcək işlərin planı hazırlanmışdır.

Azərbaycan Respublikası Prezidentinin 13 fevral  2014-cu il tarixli ""Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında" Sərəncamının yerinə yetirilməsi məqsədi ilə 14 fevral 2014-cü il tarixdə Ali Məhkəmədə 13 nəfərdən ibarət xüsusi işçi qrup yaradılmışdır.

2014-ci ildə "Elektron məhkəmə" sisteminin yaradılması məqsədi ilə tədbirlər planı, yerinə yetiriləcək işləri əhatə edən ilkin layihə hazırlanmış və maliyyə üçün təkliflər verilmişdir.

Layihə çərçivəsində  Ali Məhkəmənin mövcud texniki və proqram təminatının  mövcud "Elektron sənəd dövriyyəsi sistemdə istifadəçilərin işinin yüngülləşdirilməsi və sənədlərin işlənməsini sürətləndirmək məqsədi ilə müəyyən dəyişikliklər edilmiş, işlərin yerinə

yetirilməsinə nəzarəti təmin etmək üçün xüsusi daxili axtarış-nəzarət sistemi təkmilləşdirilmiş, "İnternet portal www.supremecourt.gov.az"-da "E-Xidmətlər" bölməsinə dəyişikliklər və yeni bəndlər, "Təhlil və statistika sistemi"nə yeni alətlər və statistik formalar əlavə edilmiş, yeni nəzarət sistemi yaradılmış, işlərin avtomatik bölgüsünün aparılması üçün xüsusi proqram hazırlanmış, Ali Məhkəmənin kadrlar sektoru üçün xüsusi proqram kompleksində dəyişikliklər edilmiş, mühasibat uçotu proqram təminatında qanunvericiliyə uyğun dəyişikliklər edilmişdir.

"Elektron məhkəmə" sisteminin yaradılması və Ali Məhkəmənin informasiya sisteminin yenilənməsi, məhkəməyə daxil olan işlərin elektron formada işlənməsi üçün proqram-texniki kompleksin yaradılması, fiziki və hüquqi şəxslərin məhkəmələrə müraciətlərinin, iddia ərizələrinin, müxtəlif məhkəmə instansiyalarına şikayətlərin elektron formada təqdim edilməsi üçün xüsusi sistemin yaradılması ilə bağlı prosessual qanunvericiliyə dəyişikliklər edilməsi barədə təkliflər verilmişdir.

Ali Məhkəmə Aparatının strukturunda müvafiq dəyişikliklər edildikdən, yəni insan hüquqları və ictimaiyyətlə əlaqələr şöbəsi təşkil edildikdən sonra Aparat və İşlər İdarəsi 2014-cü ildə aşağıdakı tərkibdə fəaliyyət göstərmişdir :

**Ali Məhkəmənin Aparatı**

1. Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili şöbəsi
2. Beynəlxalq əlaqələr şöbəsi
3. Analitik və qanunvericiliyin sistemləşdirilməsi şöbəsi
4. Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsi
5. Unsan hüquqları və ictimaiyyətlə əlaqələr şöbəsi
6. Dövlət qulluğu və kadr məsələləri sektoru
7. İcra şöbəsi
8. Ali Məhkəmə Plenumunun katibliyi
9. Mülki kollegiyanın katibliyi
10. Inzibati-İqtisadi kollegiyanın katibliyi
11. Cinayət kollegiyasının katibliyi
12. Hərbi kollegiyanın katiblyi

**Ali Məhkəmənin İşlər İdarəsi**

1. İnformasiya Texnologiyaları şöbəsi
2. Maliyyə-Təsərrüfat şöbəsi
3. Ali Məhkəmənin Xatirə Muzeyi
4. Kitabxana
5. Arxiv
6. Ali Məhkəmənin mətbəəsi

Məlumatın əhatə etdiyi dövrdə Ali Məhkəmənin iş planına uyğun olaraq Aparatın müvafiq şöbələri tərəfindən müəyyən işlər görülmüşdür.

Azərbaycan Respublikası Ali Məhkəməsi qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqinin vahid təcrübəsinin yaradılması və İnsan Hüquqlarının müdafiəsini tənzimləyən beynəlxalq sənədlərin müddəalarının məhkəmə təcrübəsində tətbiqinin təmini istiqamətində öz səlahiyyətləri çərçivəsində mütəmadi olaraq tədbirlər həyata keçirir. Bu məqsədlə ayrı-ayrı sahələr üzrə məhkəmələr tərəfindən baxılan işlər öyrənilərək ümumiləşdirilir, bu növ işlərə baxılarkən nöqsanlar və qanun pozuntuları aşkar edildikdə ümumiləşdirmənin nəticələri Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunda hakimlərin iştirakı ilə müzakirə olunur.

Belə ki, İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyasında təsbit edilmiş insanların şərəf və ləyaqətinin müdafiəsi ilə bağlı 2012-2013-cü illərdə respublikanın birinci instansiya məhkəmələri tərəfindən xüsusi ittiham qaydasında baxılmış işlər öyrənilərək ümumiləşdirilmiş, ümumiləşdirmənin nəticəsi 21 fevral 2014-cü il tarixdə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunda müzakirə edilərək aşkar edilmiş nöqsanların aradan qaldırılması və bu növ işlər üzrə vahid məhkəmə təcrübəsinin formalaşdırılması məqsədi ilə müvafiq qərarlar qəbul edilmiş və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında Qanun layihəsi hazırlanaraq Qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikasının Milli Məclisinə təqdim olunmuş, bu məsələ ilə bağlı birinci və apellyasiya instansiyası məhkəmələrinə tövsiyyə xarakterli icmal məktubu göndərilmişdir.

Məlumatın əhatə etdiyi dövrdə “Təqsirləndirilən şəxslər barəsində həbs qətimkan tədbirinin seçilməsi, həbsdə saxlanılma müddətinin uzadılması barədə təqdimatlara, həbs qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz edilməsi haqqında vəsatətlərə baxılarkən

məhkəmələr tərəfindən qanunvericiliyin tətbiqi təcrübəsi öyrənilərək ümumiləşdirilmiş, ümumiləşdirmənin nəticəsi birinci və apellyasiya instansiya məhkəmələrinin hakimlərinin iştirakı ilə müzakirə edilmiş bu növ işlərə baxılarkən Konstitusiyanın, İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyasının, prosessual qanunvericiliyin tələblərinə, Avropa Məhkəməsinin presedent təcrübəsinə və Ali Məhkəmə Plenumunun Qərarının tövsiyyələrinə əməl olunması məqsədi ilə birinci və apellyasiya instansiyası məhkəmələrinə icmal məktubu göndərilmişdir.

Bundan əlavə 2014-cü ildə Aparatın məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili şöbəsini əməkdaşları, Ali Məhkəmənin Mülki və İnzibati-İqtisadi Kollegiyalarının hakimləri ilə birlikdə "Mülki və inzibati mübahisələrin məhkəmə aidiyyətinin müəyyənləşdirilməsi" ilə bağlı 2012-2013-cü illərdə baxılmış işlər üzrə məhkəmə təcrübəsi ümumiləşdirilmiş, ümumiləşdirmənin nəticəsinin Ali Məhkəmənin Plenum iclasında müzakirə edilməsi nəzərdə tutulmuşdur.

Aparatın Analtik və qanunvericiliyin sistemləşdirilməsi şöbəsinin əməkdaşları tərəfindən 2014-cü ildə şöbənin əsas funksional təyinatından irəli gələn analitik işin həyata keçirilməsi, qanunların və digər normativ hüquqi aktların, normativ xarakterli aktların, o cümlədən onlara edilmiş əlavə və dəyişikliklərin sistemləşdirilməsi və kodifikasiyası təmin edilmiş, Ali Məhkəməyə daxil olan qanunvericilik aktlarının və onların layihələrinin öyrənilməsi həyata keçirilmiş, bu layihələrlə əlaqədar rəy və təkliflər hazırlanaraq müvafiq sorğu edən təşkilatlara göndərilmişdir. Əlavə olaraq şöbəyə daxil olan qanunların, fərmanların, qərarların və digər normativ hüquqi aktların, onlara edilən əlavə və dəyişikliklərin çoxaldılaraq, hərəsindən bir nüsxə olmaqla Ali Məhkəmənin hakimlərinə, Aparatın rəhbərliyinə və struktur bölmələrinə (o cümlədən lokal elektron şəbəkə vasitəsilə) verilməsi təmin edilmişdir. Şöbə tərəfindən müvafiq strukturlarla razılaşdırılaraq bir sıra qanun layihələri də hazırlanmışdır.

Qanunvericilik bazasının "Analtik və qanunvericiliyin sistemləşdirilməsi şöbəsində" olması ilə əlaqədar olaraq Ali Məhkəmənin kollegiya sədrlərinin hakimləri, Aparatın rəhbərliyinin və struktur bölmələrinin əməkdaşlarının müraciətlərinə əsasən şöbənin əməkdaşları öz növbəsində göstərilən şəxsləri müvafiq normativ hüquqi aktlarla təmin etmişdir.

Ali Məhkəmənin Bülletenində məhkəmələrin fəaliyyəti ilə əlaqədar Milli Məclisin Qanun və Qərarları, Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları, Ali Məhkəmə Plenumunun qərarları, qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsinə

dair ümumiləşdirilmələrin nəticələri, icmal məktubları və məhkəmə fəaliyyəti ilə bağlı əhəmiyyət kəsb edən sair məlumatlar şöbənin əməkdaşları tərəfindən toplanaraq, texniki baxımdan işlənərək nəşriyyata təqdim edilmiş və "Bülleten"lərin nəşriyyat tərəfindən vaxtında buraxılmasına nəzarət həyata keçirilmişdir.

Aparatın İnsan Hüquqları və ictimaiyyətlə əlaqədar şöbəsi tərəfindən 2014-cü ilin yanvar ayından başlayaraq hər həftənin ikinci günü "İnsan hüquqları üzrə Avropa Məhkəməsinin" təcrübəsinin öyrənilməsi məqsədilə seminar-məşğələlər təşkil edilmiş, Azərbaycan üçün aktual olan İnsan hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarından Ali Məhkəmənin müvafiq kollegiya sədrləri və hakimlərilə razılaşdıraraq mövzuların seçilməsi həyata keçirilmiş, seçilmiş qərarlar üzrə seminar-məşğələ cədvəlləri tərtib edilərək hakimlərə təqdim olunmuşdur. Tərtib edilmiş cədvəl üzrə məruzə ediləcək Avropa Məhkəməsinin qərarlarının surətləri lokal elektron şəbəkə vasitəsilə Ali Məhkəmənin kollegiya sədrlərinə və hakimlərinə verilməsi təmin edilmiş, həmçinin İnsan Hüquqları Üzrə Avropa Məhkəməsinin qərarlarının Azərbaycan dilinə tərcümə olunmuş surəti Respublikanın apellyasiya və birinci instansiya məhkəmələrinə göndərilməsi həyata keçirilmiş, eyni zamanda həmin qərarların Ali Məhkəmənin internet səhifəsində "Avropa Məhkəməsinin qərarları" bölməsində yerləşdirilməsi təmin edilmişdir.

24 may 2014-cü il tarixində Azərbaycan Respublikası Ali Məhkəməsi Aparatının İnsan Hüquqları və İctimaiyyətlə Əlaqələr Şöbəsi tərəfindən "Həbs qətimkan tədbirinin tətbiqi İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun işığında" mövzusunda seminar keçirilmişdir. Bakı Apellyasiya Məhkəməsində təşkil olunmuş seminarda rayon (şəhər) məhkəmələrinin, apellyasiya məhkəmələrinin və hərbi məhkəmələrin hakimləri iştirak etmişlər. Seminarı giriş sözü ilə açan Ali Məhkəmənin Cinayət kollegiyasının sədri Şahin Yusifov çıxışında həbs qətimkan tədbirinin tətbiqi ilə bağlı ümumiləşdirmənin nəticələrini və hakimlər tərəfindən yol verilən nöqsanları seminar iştirakçılarının nəzərinə çatdırmışdır.

Ali Məhkəmənin hakimlərinin icraatında olan işlərlə əlaqədar Avropa İnsan Hüquqları Məhkəməsinin müvafiq presedentlərinin tapılması, onların tərcümə olunması və hakimlərə təqdim olunması təmin edilmişdir.

Bundan əlavə 2014-cü il ərzində Avropa İnsan Hüquqları Məhkəməsi tərəfindən Azərbaycana qarşı qəbul edilmiş qərarlar barədə Ali məhkəmənin hakimlərinə və əməkdaşlarına mütəmadi olaraq məlumat verilmişdir.

Məlumatın əhatə etdiyi dövrdə Ali Məhkəmənin Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsinə **21604** ərizə, şikayət və müraciət daxil omuşdur ki, bu da 2013-cü ildə daxil olmuş ərizə, şikayət və müraciətlərin ümumi sayından **249,** yəni 1**,1%** az olmuşdur. Bundan əlavə 2013-cü illə müqayisədə Ali Məhkəməyə daxil olmuş əlavə kassasiya şikayətlərinin sayı da **344**, yəni **17,9%** azalmışdır.

Vətəndaşların ərizə, şikayət və digər müraciətlərinə vaxtında baxılması, onlara hüquqi cəhətdən əsaslı və düzgün cavab verilməsi daim diqqət mərkəzində olmuş, Ali Məhkəməyə daxil olmuş ərizə, şikayət və digər müraciətlərdən **7212-si, yəni 33,4 %-i (**prosessual sənədlər, kassasiya şikauyəti, kassasiya protesti, kassasiya şikayətinə etiraz, kassasiya şikayətinə əlavə, vəsatət **və s.)** olduğu üçün icraatda olan işlərlə əlavə edilməsi üçün Ali Məhkəmənin müvafiq kollegiyalarına verilmiş, **12815 (59,3%),** müraciətlərə isə Ali Məhkəmənin rəhbərliyi və Aparatı tərəfindən baxılmışdır.

Ali Məhkəmənin sədri və müvafiq kollegiya sədrləri tərəfindən vətəndaşların qəbulu müəyyən olunmuş günlərdə və saatlarda həyata keçirilir. Qəbul barədə ətraflı məlumat Ali Məhkəmənin internet səhifəsində (azərbaycan, rus və ingilis dillərində) yerləşdirilmişdir.

Ali Məhkəmənin Aparatının Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsinin məsləhətçiləri tərəfindən həftənin bütün iş günləri saat 09-00-dan 18:00-dək vətəndaşların qəbulu həyata keçirilir. Şöbənin əməkdaşları tərəfindən 2014-cü il ərzində **670 nəfər** qəbul edilmiş, onların şikayətləri dinlənilmiş və onlara hüquqi cəhətdən müraciət etmə qaydaları izah olunmuşdur.

Bundan əlavə qeyd olunan müddətdə Ali Məhkəmənin sədri tərəfindən **65** nəfər və kollegiya sədrləri tərəfindən **43** nəfər qəbul edilmiş və onlara müraciət etdikləri məsələlər üzrə müvafiq izahlar verilmişdir.

# Ali Məhkəmənin 2014-cü ildə beynəlxalq əlaqələri.

**Ali Məhkəmənin Beynəlxalq hüquq təşkilatları ilə əlaqələri 2014-cü ildə daha da genişlənmişdir.**

**Dünyanın mütərəqqi ölkələrinin, xususilə Avropa İttifaqının üzvü olan ölkələrin məhkəmə hüquq təşkilatları ilə Bakıda görüşlər keçirilmiş, həmçinin bir sıra ölkələrə qarşılıqlı səfərlər və təcrübə mübadilələri təşkil edilmişdir.**

**Bütün bunlar Ali Məhkəmənin fəaliyyətinin daha da müasirləşməsinə və təkmilləşməsinə xidmət etmişdir.**

**Yanvarın 23-də** ölkəmizdə səfərdə olan Avropa Şurası Parlament Assambleyasının Avropa Şurası Üzv Dövlətləri Tərəfindən Öhdəliklərin Yerinə Yetirilməsi Üzrə Komitəsinin Azərbaycan üzrə həmməruzəçiləri cənab Pedro Aqramunt və cənab Cozef Debono Qrex Ali Məhkəmənin Sədri cənab Ramiz Rzayevlə görüşmüşdür.

**Yanvarın 29-da** İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin dəvəti ilə Ali Məhkəmənin sədri və onun rəhbərlik etdiyi nümayəndə heyəti Fransanın Strasburq şəhərində keçirilən 2014-cü il üzrə məhkəmə ilinin açılışında həsr olunmuş təntənəli iclasda və ".İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının icrası: bölüşdürülmüş məhkəmə məsuliyyəti" mövzusunda keçirilmiş seminarda iştirak etmişdir.

**Fevralın 5-də** Ali Məhkəmədə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının Cənubi Qafqazdakı Ofisinin İnsan Hüquqları üzrə Baş Müşaviri Vladimir Şkolnikov və BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının Milli Müşaviri Kamran Bağırov ilə Beynəlxalq Əlaqələr və İnsan Hüquqları və İctimaiyyətlə Əlaqələr şöbələrinin əməkdaşlar arasında görüş keçirilmişdir. Görüşün məqsədi Baş Müşavir Vladimir Şkolnikovun Azərbaycana səfəri çərçivəsində BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı ilə ölkənin məhkəmə qurumları arasında insan hüquqları və qanunun aliliyi sahəsində gələcək əməkdaşlıq yollarının müəyyən edilməsi üçün Ali Məhkəmənin yeni yaradılmış İnsan Hüquqları və İctimaiyyətlə Əlaqələr şöbəsinin əməkdaşları ilə tanışlıq olmuşdur.

**Fevralın 16-da** Ali Məhkəmənin Beynəlxalq Əlaqələr şöbəsinin müdiri Fərid Mədətli GİZ tərəfində Almaniyanın Berlin şəhərində keçirilən Qış Akademiyası təlim kurslarında iştirak etmişdir.

**Fevralın l7-də** Avropa Şurasının çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində öhdəliklərin icrasına nəzarət edən MONEYVAL

Komitəsinin dəyərləndirmə missiyası Ali Məhkəmədə, Bakı və Sumqayıt Apellyasiya Məhkəmələrinin və birinci instansiya məhkəmələrinin hakimləri ilə görüşmüşdür. MONEYVAL Katibliyinin nümayəndələrindən, Böyük Britaniya, Rumıniya, Xorvatiya, Rusiya, Türkiyə və Makedoniya ekspertlərindən ibarət dəyərləndirmə missiyası ilə görüşdə Ali Məhkəmənin Cinayət kollegiyasının sədri Şahin Yusifov ölkəmizdə davamlı olaraq aparılan məhkəmə-hüquq islahatları, bu islahatlar ölkəmizdə yaradılmış və fəaliyyət göstərən yeni məhkəmə sistemi, cinayət yolu ilə əldə edilmiş vəsaitlərin leqallaşdırılmasına və çirkli pulların yuyulmasına qarşı mübarizə sahəsində məhkəmələrin vəzifələri və səlahiyyətləri, bu xarakterli cinayətlərə dair işlərə baxılması təcrübəsi, qanunvericiliyin təkmilləşdirilməsi yolu ilə IV raund dəyərləndirilmə çərçivəsində çirkli pulların yuyulmasına, korrupsiyaya qarşı mübarizə sahələrində həyata keçirilmiş tədbirlər haqqında geniş məlumat verilmişdir.

**Aprelin 8-də** ölkəmizdə səfərdə olan Beynəlxalq Prokurorlar Assosiasiyasının Prezidenti və Avstriya Prokurorlar Assosiasiyasının Prezidenti Gerhard Yaroş Ali Məhkəmənin Sədri Ramiz Rzayevlə görüşmüşdür.

**Mayın 19-da** Ölkəmizdə səfərdə olan Xorvatiya Respublikasının Ədliyyə naziri Orsat Milyeniçin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri ilə görüşmüşdür. Görüşdə Ali Məhkəmənin sədri Xorvatiya Respublikası Ədliyyə nazirinin başçılıq etdiyi nümayəndə heyətini Azərbaycanda salamlamaqdan məmnun olduğunu bildirmiş, hər iki xalqın vahid ideya birliyi və həmrəyliyi ilə bağlı fikirlərini bölüşmüşdür. Bu görüşün qarşılıqlı əlaqələrin daha da möhkəmləndirilməsi üçün böyük imkanlar açdığını ifadə etmşdir. Ali Məhkəmənin sədri Azərbaycanla Xorvatiyanın məhkəmə-hüquq sistemləri arasında əlaqələrin yaranmasının uğurla inkişaf edərək genişlənəcəyini vurğulamışdır.

**Mayın 21-də** ölkəmizdə səfərdə olan Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Avropa Şurasına Üzv Dövlətlər Tərəfindən Öhdəliklərin yerinə Yetirilməsi üzrə Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçiləri Cozef Debono Qrex, Pedro Aqramunt Fond de Mora və Monitorinq Komitəsi katibliyinin rəhbəri xanım Karolin Bravo Ali Məhkəmənin sədri ilə görüşmüşlər. Görüşdə Monitorinq Komitəsi həmməruzəçilərinin hazırladıqları hesabatla başlı geniş fikir mübadiləsi aparılmış, onları maraqlandıran suallar cavablandırılmışdır.

**İyunun 6-da** Ali Məhkəmənin İnzibati-İqtisadi Kollegiyasının hakimi Azər Hüseynov, Mülki Kollegiyanın hakimi Vəfaddin İbayev və Ali Məhkəmə Aparatının Rəhbəri Əlirza Kərimov Belarussiya Respublikasının Minsk şəhərində keçirilən "Beynəlxalq Elmi-Praktiki" konfransda iştirak etmişdirlər.

**İyunun 15-də** Ali Məhkəmənin Mülki Kollegiyasının hakimləri Mehparə Əhmədova, İlqar Xələfov, Cinayət Kollegiyasının hakimi Hafiz Nəsibov, Ali Məhkəmənin Beynəlxalq Əlaqələr

Şöbəsinin böyük məsləhətçisi Emil Ələkbərov və İnsan Hüquqları və İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Kamalə Əliyeva Fransanın Strasburq şəhərində keçirilən İnsan Hüquqlarına həsr olunmuş treninqdə iştirak etmişdirlər.

**İyunun 22-də** Ali Məhkəmənin Cinayət Kollegiyasının sədri Şahin Yusifov Gürcüstanın Tiflis səhərində keçirilən Mərkəzi və Şərqi Avropa Ali Məhkəmə sədrlərinin konfransında iştirak etmişdir.

**İyunun 22-də** Ali Məhkəmənin İnzibati-İqtisadi Kollegiyasının hakimləri Zakir Quliyev, İlqar Dadaşov, Xəqani Məmmədov və İlqar Hüseynov Almaniyanın Karlsruhe şəhərində keçirilən "Azərbaycanda məhkəmə və hüquq islahatlarının dəstəklənməsi" mövzusunda seminarda iştirak etmişdirlər.

**İyunun 30-da** ölkəmizdə səfərdə olan Bolqarıstanın Baş Prokuroru cənab Sotir Tsatsarov Ali Məhkəmənin Sədri cənab Ramiz Rzayevlə görüşmüşdür.

**İyulun 2-də** Ali Məhkəmənin Beynəlxalq Əlaqələr şöbəsinin müdiri Fərid Mədətli GİZ tərəfində Almaniyanın Berlin şəhərində keçirilən "Cənubi Qafqazda hüquq və məhkəmə islahatlarının dəstəklənməsi" mövzusunda olan seminarda iştirak etmişdir.

**İyulun 7-də** Ali Məhkəmənin İnzibati-İqtisadi Kollegiyasının hakimi Xəqani Məmmədov Monteneqronun Setinyen şəhərində keçirilən "İnsan hüquqlarının təşviqində beynəlxalq hüququn rolu" mövzusunda seminarda iştirak etmişdir.

**İyulun 30-da** Ali Məhkəmənin İnsan Hüquqları və İctimaiyyətlə Əlaqələr şöbəsinin müdiri Amerika Birləşmiş Ştatlarının Nyu-York ştatında keçirilən İnsan Hüquqları üzrə İnstitutun Yay Proqramında iştirak etmişdir.

**Oktyabrın 9-da** ölkəmizdə səfərdə olan Qirğiz Respublikası Ali Məhkəməsi Konstitusiya Palatasının sədri Mukambet Kasımaliyevin başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür. Görüşdə Ali Məhkəmənin sədri Qırğız nümayəndə heyətini Azərbaycanda salamlamaqdan məmnun olduğunu bildirmiş, ənənə və dəyərlərlə bir-birinə yaxın olan hər iki xalqın həmrəyliyi ilə bağlı çoxsaylı nümunələrin olduğunu qeyd etmiş, məhkəmə hüquq sistemləri arasında da bu əlaqələrin inkişaf edəcəyinə əminliyini ifadə etmişdir.

**Oktyabrın 10-da** ölkəmizdə səfərdə olan Vyetnam Milli Assambleyası daimi Komitəsinin üzvü, Milli Məclisinin Hüquq Komitəsinin sədri prof. Dr. Fan Tring Linin başçılıq etdiyi nümayəndə heyəti Ali Məhkəmənin sədri ilə görüşmüşdür.Görüşdə Ali Məhkəmənin sədri Vyetnam nümayəndə heyətini Azərbaycanda salamlamaqdan məmnun olduğunu bildirmiş, Azərbaycanla Vyetnam arasında əlaqələrin yeni mərhələyə qədəm qoyduğunu, bu əlaqələrin uğurla inkişaf etdiyini vurğulamışdır.

**Oktyabrın 23-də** ölkəmizdə səfərdə olan Tatarıstan Respublikası Ali Məhkəməsinin sədri İlgiz Gilazov Ali Məhkəmənin sədri ilə görüşmüşdür. Görüşdə Ali Məhkəmənin Sədri R. Rzayev Tatarıstan Ali Məhkəməsinin sədrini Azərbaycanda salamlamaqdan məmnun olduğunu bildirmiş, müəyyən ənənə və dəyərlərlərlə bir-birinə yaxın olan hər iki xalqın həmrəyliyi ilə bağlı çoxsaylı nümunələrin olduğunu qeyd etmiş, məhkəmə hüquq sistemləri arasında da bu əlaqələrin inkiıaf edəcəyinə əminliyini ifadə etmişdir.

**Oktyabrın 23-də** ölkəmizdə səfərdə olan Montenegro Ali Məhkəməsinin sədri Vesna Medenica Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür. Görüşdə Ali Məhkəmənin sədri Montenegro Ali Məhkəməsi sədrini Azərbaycanda salamlamaqdan məmnun olduğunu bildirmiş, Azərbaycanla Montenegro arasında əlaqələrin yeni mərhələyə qədəm qoyduğunu, bu əlaqələrin uğurla inkişaf etdiyini vurğulamışdır.

**Oktyabrın 24-25 tarixlərində** Bakıda Azərbaycan Respublikası Ali Məhkəməsinin və Avropa Şurasının birgə təşkilatçılığı ilə "İnsan hüquqları və əsas azadlıqları haqqında Avropa Konvensiyasının ölkədaxili tətbiqində milli hakimlərin rolu" mövzusunda beynəlxalq konfrans keçirilmişdir.

Konfransda İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin sədri və hakimləri, Avropa Şurasına üzv dövlətlərin və digər ölkələrin Konstitusiya məhkəmələrinin, Ali və Ali İnzibati və digər məhkəmələrinin 60-dan çox sədri və hakimi, Avropa Şurası Nazirlər Komitəsi Katibliyinin vəzifəli şəxsləri, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, Azərbaycan Respublikasının ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov, Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov, baş prokuror Zakir Qaralov, Prezident Administrasiyasının hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov, həmçinin ölkəmizin apelyasiya və birinci instansiya məhkəmələrinin hakimləri, prokurorlar, ədliyyə işçiləri, vəkillər və hüquq sahəsində çalışan alimlər iştirak ediblər.

**Noyabrın 20-də** Ali Məhkəmənin İnzibati-İqtisadi Kollegiyasının hakimi Xəqani Məmmədov Gürcüstan Respublikasının Tiflis şəhərində keçirilən "Beynəlxalq dialoq vasitəsi ilə gələcək inkişaf" mövzusunda olan seminarda iştirak etmişdir.

# Bakıda “İnsan hüquqları və əsas azadlıqları haqqında Avropa Konvensiyasının ölkə daxili tətbiqində milli hakimlərin rolu” mövzusunda Beynəlxalq Konfrans keçirilmişdir




Azərbaycan Respublikası Ali Məhkəməsinin və Avropa Şurasının birgə təşkilatçılığı ilə 2014-cü ilin oktyabrın 24-də “Four Seasons Hotel Baku” mehmanxanasının iclaslar salonunda “İnsan Hüquqları və Əsas Azadlıqları haqqında Avropa Konvesiyasının ölkə daxili tətbiqində milli hakimlərin rolu” mövzusunlda Beynəlxalq Konfrans keçirilmişdir.

Konfransın işində Avropa İnsan Hüquqları Məhkəməsinin sədri və hakimləri, 60 nəfərdən artıq olan Avropa Şurası üzv dövlətlərin və digər dövlətlərin Konstitusiya Məhkəmələrinin, Ali və Ali İnzibati Məhkəmələrinin, digər məhkəmələrinin sədrləri və hakimləri, Avropa Şurasının, Nazirlər Komitəsi Katibliyinin vəzifəli şəxsləri və sair xarici nümayəndələr, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Sədri F.Abdullayev, Azərbaycan Respublikasının ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının Sədri F.Məmmədov, Azərbaycan Respublikası Milli Məclisi sədrinin birinci müavini Z.Əsgərov, Azərbaycan Respublikasının Baş Prokuroru Z.Qaralov, Azərbaycan Respublikası Prezident Administrasiyasının hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri

F.Ələsgərov və digər rəsmi şəxslər iştirak etmişlər. Konfransın işinə həmçinin ölkənin apellyasiya və birinci instansiya məhkəmələrinin hakimləri, prokurorlar və ədliyyə işçiləri, vəkillər və hüquq sahəsində çalışan alimlər qatılmışlar.

Açılış mərasimində çıxış etmiş Azərbaycan Respublikası Ali Məhkəməsinin Sədri Ramiz Rzayev, Avropa İnsan Hüquqları Məhkəməsinin sədri Dean Şpilman, Azərbaycan Respublikası Prezident Administrasiyasının hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri F.Ələsgərov Bakıya gəlmiş Konfrans iştirakçılarını salamlayaraq, onlara Konfransın işində uğurlar arzulamışlar.

Ali Məhkəmənin Sədri Ramiz Rzayev çıxışında Azərbaycan xalqının ülvi niyyətinin hüququn aliliyini, insan hüquq və azadlıqlarının müdafiəsini təmin edən demokratik hüquqi dövlətin qurulması olduğundan, bu yolda Avropa xalqlarının zəngin təcrübəsindən istifadə edilməsindən, o cümlədən ölkənin məhkəmələri tərəfindən “İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” Avropa Konvensiyasının birbaşa tətbiqindən və Avropa İnsan Hüquqları Məhkəməsinin zəngin təcrübəsinə müraciət edilməsindən söz açmışdır.

Ramiz Rzayev bildirmişdir ki, “İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” Avropa Konvensiyası Azərbaycanın beynəlxalq müqavilələri sistemində xüsusi yer tutur və Konstitusiyaya görə, bu müqavilələr ölkəmizin hüquq sisteminin tərkib hissəsidir; eyni zamanda Avropa Məhkəməsinin presedent hüququ ölkənin hüquqi və məhkəmə mədəniyyəti ilə uğurlu inteqrasiyasının amilidir.

O, qeyd etmişdir ki, Azərbaycanda son 10 ilə yaxın müddət ərzində hakimlərin yeni şəffaf seçki sistemi fəaliyyət göstərir, bu müddətdə Avropa Konvensiyasını mənimsəmiş, Avropa Məhkəməsinin presedent qərarlarını dərindən öyrənib, onları şərh etmək qabiliyyətinə malik olmuş hakimliyə namizədlərin hazırlanmasına və hakim vəzifələrinə seçilməsinə nail olunmuşdur.

Natiq, Ali Məhkəmənin insan hüquqları və azadlıqlarının müdafiəsinin təmin edilməsində rolunu, habelə Avropa Konvensiyasını birbaşa tətbiq edən məhkəmələr üçün örnək olduğunu, Ali Məhkəmənin vətəndaşların müraciət etdikləri milli hüquqi müdafiə vasitələrindən sonuncusu olduğunu vurğulamış və göstərmişdir ki, Ali Məhkəmə, ədalət mühakiməsini Avropa Konvensiyasına uyğun və öz diskresiyasına əsaslanaraq həyata keçirir, Avropa Məhkəməsinin ölkə ilə bağlı qərarlarından sonra milli məhkəmələrin qərarlarına yenidən baxır və bu zaman yol verilmiş səhvlərin təkrar edilməsinin qabağını almağa, bunun üçün hakimlərin Avropa Məhkəməsinin qərarlarına yaradıcı yanaşmasına, onları xüsusi dəqiqliklə öyrənməsinə çalışır.

Avropa İnsan Hüquqları Məhkəməsinin Sədri Dean Şpilman öz çıxışında demişdir: Konvensiyaya tərəfdar çıxan dövlətlər Konvensiyada təsbit olunan hüquqları təmin etməlidirlər. O cümlədən milli məhkəmələr Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarına istinad etməlidirlər. Həmçinin hakimlər öz təcrübələrinə də istinad etməlidirlər.

Dean Şpilman qeyd etmişdir ki, Presedent hüquqi sahəsində geniş bilgiyə malik olmalıyıq. Milli hakimlərlə Avropa İnsan Hüquqları Məhkəməsinin hakimləri arasında dioloq genişləndirilməlidir. Yeni hazırlanan 16 saylı Protokol da buna xidmət edir.

Azərbaycan Respublikası Prezident Administrasiyasının hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov öz nitqində qeyd etmişdir ki, biz Avropa məhkəməsinin səmərəliliyinin artırılması istiqamətində yeni yanaşmaları və Avropa Konvensiyasının dəyərlərinin geniş yayılmasını dəstəkləyirik. Konvensiya müddəalarının yerinə yetirilməsi üçün Azərbaycan dövləti tərəfindən müxtəlif istiqamətlərdə səmərəli fəaliyyət göstərilir. Buna qanunvericiliyin təkmilləşdirilməsi, dövlət orqanlarının əməkdaşları və hakimlər üçün mütəmadi təlimlər, məhkəmə sistemi infrastrukturunun müasirləşdirilməsi, əhali arasında maarifləndirmə işinin aparılması, müxtəlif sosial yönümlü innovasiyaların tətbiqi və sair tədbirlər daxildir. Şübhəsiz ki, insan hüquqlarının və əsas azadlıqlarının təmin edilməsində başlıca rol mülki, inzibati və ya cinayət işlərinə müstəqil, obyektiv, qərəzsiz qiymət vermək imkanına malik olan məhkəmələrə mənsubdur.

Azərbaycan Ali Məhkəməsinin Konvensiyanın tətbiqi sahəsində xüsusi rolunu qeyd etmək istərdim. Məhkəmə qərarlarının böyük əksəriyyəti Avropa Məhkəməsinin presedent hüququ nəzərə alınmaqla, Konvensiyanın tələblərinə riayət edilməklə qəbul edilir.

Birinci sessiyanı əhatə edən "qabaqlayıcı tədbirlər" və "məhkəmə qərarlarının icrası" adlı bölmələrdə maraqlı çıxışlar və müzakirələr olmuşdur.

Sessiyanın birinci bölməsində Türkiyə Ali Məhkəməsinin Sədri Ali Alkanın - "Milli qanunvericilikdə Konvensiyanın statusu", Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi V.İbayevin - "Avropa Şurasına üzv olan dövlətlərin Ali Məhkəmələrinin oynadığı rol", Polşa hakimi, Peşəkar hüquqşünaslar üçün Avropa Proqramının (HELP) Məşvərətçi Şurasının üzvü G.Borkovskinin - "Peşəkar hüquqşünasların öyrədilməsinin rolu: qanun pozuntusunun qarşısını almaqda onların təsirinə dair ən qabaqçıl təcrübələr"; ikinci bölməsində isə Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarının icrası departamentinin direktorunun müavini F.Sundberqin "Aşkar olunmuş pozuntular və təkrar pozuntuların qarşısının alınması, təkrar ölkədaxili icraat və digər vasitələrlə hüquqların bərpası", Fransa Dövlət Şurası kollegiyasının sədri İ.Robinonun - "Yerli məhkəmə sisteminin xüsusiyyətlərini nəzərə almaqla daxili məhkəmə presedent hüququnda edilən dəyişikliklər və məhkəmə qərarları: məhkəmə təcrübəsini dəyişmək yolu ilə yerli qanunvericilikdə baş verən uyğunlaşmanın məhdudiyyətləri" və Azərbaycan Respublikası Prezident Administrasiyasının hüquq mühafizə orqanları ilə iş şöbəsinin sektor müdiri, Avropa İnsan Hüquqları Məhkəməsində daimi nümayəndə Ç.Əsgərovun – "Avropa məhkəməsi qərarlarının icrası: fərdi və ümumi tədbirlər" mövzularında məruzələri səslənmişdir.

# Ali Məhkəmənin İnternet səhifəsi




2014-cü ildə Ali Məhkəmənin internet səhifəsinin 12 nəfərdən ibarət yeni redaksiya heyəti yaradılmışdır. İnternet səhifə yeni dizaynda tamamilə yenilənmiş proqram kompleksi əsasında yenidən yaradılmış və Azərbaycan Respublikası Prezidentinin yanında Xüsusi Dövlət Mühafizə Xidmətinin serverlərində yerləşdirilmişdir. Ali Məhkəmənin yeni internet səhifəsi üç dildə – azərbaycan, rus və ingilis dillərində tərtib edilmişdir və səmərəliliyin artırılması üçün tərtib edilən internet səhifəsi www.supremecourt.gov.az ünvanında yerləşir.

Ali Məhkəmənin yeni internet səhifəsi 8 bölmədən ibarətdir. Burada Respublikamızın məhkəmə sistemi, Ali Məhkəmənin strukturu, Plenumun fəaliyyəti, Qərarları (müvafiq məhkəmə kollegiyaları tərəfindən qəbul edilmiş qərarlar), Avropa İnsan Hüquqları məhkəməsinin qərarları, Ali Məhkəmədə keçirilmiş beynəlxalq konfrans materialları, hakimlərin intizam məsuliyyətinə cəlb olunması barədə məlumat, işlərin təyinatı və baxılmış işlərin nəticələri, məhkəmə aidiyyəti, vətəndaşların, ərizə və müraciətlərin qəbulu, arayışlar və mətbuat xidməti haqqında məlumat almaq olar.




Bundan başqa, internet səhifəsində Ali Məhkəmənin rəhbərliyinin və hakimlərinin xarici dövlətlərə səfərləri, ölkədaxili tədbirlərdə iştirakı, habelə, Ali Məhkəmənin təşkil etdiyi tədbirlər haqqında məlumatlarla ətraflı tanış olmaq mümkündür.

Ali Məhkəmənin İnternet səhifəsində mövcud "E-Xidmətlər" bölməsində dəyişikliklər edilmişdir. Bölmədə məhkəməyə daxil olmuş işlər barədə operativ məlumatlar, təyin olunmuş




işlər barədə gündəlik və həftəlik məlumatlar dərc olunur, məhkəmə qərarlarının axtarışı üçün xüsusi interfeys yaradılmış, "online müraciət" və qəbul bəndləri əlavə edilmiş, həmçinin hər bənd üzrə istifadəçi üçün təlimat dərc edilmişdir.

2014-ci il ərzində Ali Məhkəmənin internet səhifəsinə daxil olan adamların sayı 51936, daxil olmaların sayı 89735, müraciətlərin sayı isə 376841 dəfə olmuşdur ki, bu da ötən ilin uyğun dövrünə nisbətən orta hesabla 1.13, 1.18 və 1.15 dəfə artıqdır(Qrafik 1).

2011-ci ildən bəri sayta müraciətlərin dinamikasından göründüyü kimi (Qrafik 2), müraciətlərin sayı hər il təqribən **15%** artaraq **246775-dən 376841-ə** çatmışdır.

2014-ci il ərzində Ali Məhkəmənin internet səhifəsinə dünyanın 100-dən çox ölkəsindən 89666 nəfər daxil olunmuşdur ki, bunların 83670-i Azərbaycandan, 1601-i Rusiyadan, 1465-i ABŞ-dan, 455-i Ukraynadan, 366-sı Türkiyədən, 296-i Almaniyadan, 207-si İngiltərədən, 181-i Ermənistandan, 163-ü Qazaxıstandan, 185-i İngiltərədən, 147-si Fransadan, 106-sı Gürcüstandan, 105-ü Belarusdan və 1367-si isə digər ölkələrdən olmuşdur.




Qrafiklərdə müraciətlərin təkrarlanma və davamlılığa görə paylanması nümayiş edilir. İkinci qrafikdən göründüyü kimi bütün müraciətlərin 41.94%-i bir, 11.72%-i iki, 7.64%-i üç, 5.14%-i dörd, 4.43%-i beş və 29.13%-i altı dəfə və daha çox təkrar olmuşdur.

Üçüncü qrafikdə müraciətlərin davamlılığı nümayiş etdirilir. Buradan göründüyü kimi bütün müraciətlərin 61.77%-i 30 saniyəyə qədər, 5.58%-i 31-60 saniyə, 10.69%-i 1-3 dəqiqə, 11.61%-i 3-10 dəqiqə, 8.43%-i 10-30 dəqiqə, 1.93%-i isə 30 dəqiqədən artıq davam etmişdir.

# Ali Məhkəmənin bülleteni

Azərbaycan Respublikası Ali Məhkəməsinin rəsmi nəşri olan bülleten 2003-cü ilin yanvar ayından çap olunur.

İldə dörd dəfə nəşr olunan bülletendə məhkəmə fəaliyyəti ilə bağlı Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi qanun və qərarlar, Ali Məhkəmə Plenumunun qərarları, Ali Məhkəmənin sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qəbul etdiyi qərarlar, qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsinə dair Ali Məhkəmədə aparılan ümumiləşdirilmənin nəticələri, icmal məktubları, Ali Məhkəmənin beynəlxalq əlaqələri, Ali Məhkəmə sədrinin görüşləri və məhkəmə fəaliyyəti ilə bağlı digər maraqlı materiallar dərc edilir.

2014-cü ildə Ali Məhkəmənin dörd bülleteni çap olunmuşdur.

Həmin bülletenlərdə əsasən cinayət işləri və mülki işlər üzrə məhkəmə təcrübəsi ilə bağlı qanunvericiliyin bəzi maddələrinin şərhinə həsr olunmuş analitik yazılar, apellyasiya instansiyası məhkəmələrinin cinayət və mülki işlər üzrə bəzi qərarlarının ləğv edilməsinə və dəyişdirilməsinə səbəb olan halları özündə əks etdirən hüquqi məqalələr, beynəlxalq əlaqələrə və görüşlərə həsr olunmuş məlumatlar, Ali Məhkəmədə 2014-cü ildə keçirilmiş tədbirlər, Ali Məhkəmənin Plenumunda müzakirə olunan məsələlər və qəbul edilən qərarlar, aktuallıq kəsb edən digər tədbirlər öz əksini tapmışdır.

Ali Məhkəmənin bülletenini abunə yazılmaqla əldə etmək olar. Rəngli formada buraxılışı ilə əlaqədar bülletenin illik abunə haqqı 56 manatdır.

Abunə haqqı aşağıda göstərilən hesaba ödənilməlidir.

«Ali Məhkəmənin mətbəəsi» AZ 1025.Bakı şəhəri, Yusif Səfərov küçəsi 14, 1193-cü məhəllə, müqavilə üzrə - İbrahim Ziya, VÖEN 3100693732, H/Hesab №:(IBAN) AZ47UBAZ01009655541040AZN001, Unibank KB-də VÖEN 1300017201, kod 505754, UniBank KB, VÖEN 1300017201, kod 505754, m/h AZ46NABZ01350100000000015944, SWDET BİK: UBAZAZ22.

# Ali Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi

Ali Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi və onun maddi-texniki təchizatı Azərbaycan Respublikasının dövlət büdcəsi hesabına həyata keçirilir.

Ədalət mühakiməsinin məhkəmə hakimiyyətinin yüksək statusuna uyğun həyata keçirilməsi üçün ölkə Prezidenti tərəfindən məhkəmələrə hər cür şərait yaradılmış və bu proses indi də davam etdirilir.

Məhz bunun nəticəsidir ki, dövlət büdcəsinin xərclər hissəsində məhkəmə hakimiyyətinin, o cümlədən, Azərbaycan Respublikası Ali Məhkəməsinin saxlanılması xərclərinin həcmi ilbəil artırılır.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Ali Məhkəməsi hakimlərinin sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" 19 oktyabr 2010-cu il tarixli sərəncamı bu sahəyə diqqətin əyani nəticəsidir.

Ali Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi üçün 2014-cü ildə ayrılan illik büdcə vəsaiti (dürüstləşmə ilə) **7.017.091** manat, o cümlədən, əmək haqqı fondu **4.730.725** manat müəyyən edildiyi halda, 2015-ci ildə Ali Məhkəməyə ayrılan büdcə vəsaiti **7.163.232** manat müəyyən edilmişdir ki, bu da 2014-cü ildə ayrılan büdcə vəsaitindən **146.141** manat çoxdur.

## Kütləvi informasiya vasitələri nümayəndələrinin Ali Məhkəmə ilə əlaqə qaydası

Kütləvi informasiya vasitələri nümayəndələrinin Ali Məhkəmə ilə birbaşa əlaqəsinin təmin edilməsi, lazım gəldikdə Ali Məhkəmədə baxılmış mülki və cinayət işləri haqqında onlara operativ qaydada məlumat vermək Ali Məhkəmənin hakimləri Mirzəliyev Əsəd Abdulla oğluna və Kərimov Fərhad Abdulkərim oğluna həvalə olunmuşdur.

Mülki işlərlə əlaqədar məlumat almaq üçün hakim Əsəd Mirzəliyevlə **493-09-91** nömrəli, cinayət işləri ilə əlaqədar isə hakim Fərhad Kərimovla **493-22-03** nömrəli telefonlarla birbaşa əlaqə saxlamaq olar.

Bundan əlavə, həmin hakimlərlə Ali Məhkəmənin contact@supremecourt.gov.az e-mail ünvanı vasitəsilə də əlaqə saxlamaq olar.

Ali Məhkəmədə keçirilən tədbirlər haqqında müvafiq məlumatları **493-18-37** nömrəli telefonla Ali Məhkəmənin mətbuat katibi Məmmədli Allahverdi Məhərrəm oğlundan almaq olar.